Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 144 (8167) ŞƏNBƏ, 6 iyul 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


# Prezidentdən məcburi köçkünlərə növbəti dəyərli hədiyyə



İyulun 5-də Pirallahı rayonunda 306 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev görülən işlərlə bağlı məlumat verdi. Bildirildi ki, Pirallahı rayonunda yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış 306 məcburi köçkün ailəsi üçün çoxmərtəbəli binalardan ibarət yeni yaşayış məhəlləsi dövlət başçısının 2011-ci ildə imzaladığı sərəncama əsasən yaradılıb. Sifarişçisi Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu, podratçısı isə "Kristal Abşeron" MTK olan yeni yaşayış məhəlləsinin ötən il başlanan tikinti işləri yüksək keyfiyyətlə başa çatdırılıb. Layihə üzrə doqquzmərtəbəli 3 bina tikilib ki, bunlardan ikisi 72, biri isə 162 mənzillidir. Yaşayış kompleksinə məktəb də daxildir və burada digər zəruri infrastruktur obyektləri tikilib, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb. Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sisteminin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib. Bu, ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 104-cü müasir yaşayış kompleksidir.

Mənzillərdə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, təmirli mənzillərdən 37-si birotaqlı, 107-si ikiotaqlı, 126-sı üçotaqlı, 36-sı isə dördotaqlıdır. Mənzillərin ümumi sahəsi 24 min kvadratmetrdir. Yeni yaşayış kompleksində hazırda Pirallahı rayonundakı yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mənzillə təmin olunacaqlar.

Bu istiqamətdə atılan mühüm addımlardan danışarkən Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən tədbirləri də vurğulamaq lazımdır. Artıq Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilib. Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələri köçürülüb. Sumqayıtdakı 1005 məcburi köçkün ailəsi üçün inşa olunmuş yaşayış binalarının da açılışı olub. Qeyd edək ki, 2007-ci ildə sonuncu çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. 2018-ci ilin sonunadək 58 min 223 ailə və ya 300 minə yaxın qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Təkcə ötən il 5923 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb. 2019-cu ilin birinci rübündə isə 2.227 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunub.

Sonra Laçın rayonu Bozlu tam orta məktəbindəki şəraitlə tanış olan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, bu təhsil ocağı 220 şagird yerlikdir. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən məktəbdə təlim-tədris üçün hər cür şərait yaradılıb. Məktəbin kompüter otağında şagirdlər informasiya texnologiyalarının sirlərinə yiyələnəcəklər.



Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət göstərir.

Məktəbin idman zalı da zəruri avadanlıqla təchiz edilib və burada şagirdlərin bədən tərbiyəsi ilə məşğul olmaları üçün hər cür imkan var.

Sonra dövlət başçısı və birinci xanım məcburi köçkünlərlə görüşdülər.

Məcburi köçkünləri salamlayan **Prezident İlham Əliyev** dedi:

- Bu gün çox əlamətdar bir gündür. Pirallahı rayonunda məcburi köçkünlər üçün gözəl evlər istifadəyə verilir. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Bu, çox gözəl hadisədir. Keyfiyyətli tikilib. Bugünə qədər yararsız binalarda yaşamış köçkünlər indi bu binalarda yaşayacaqlar. Bu, bir daha onu göstərir ki, dövlət məcburi köçkünlərə çox böyük qayğı, diqqət göstərir.

Son illərdə böyük işlər görülüb, həm Bakı şəhərində, həm də bütün bölgələrdə. Məcburi köçkünlərin məişət problemləri uğurla həll olunur. Pirallahı rayonunda yaşayan köçkünlər üçün bu gün bu binaların istifadəyə verilməsi bunu bir daha göstərir. Gözəl mənzillər, məktəb - bütün bunlar bir daha onu göstərir ki, dövlət bu məsələ ilə bağlı çox ciddi tədbirlər görür.

Bu il altı mindən çox məcburi köçkün ailəsi üçün yeni mənzillər, fərdi evlər tikilib istifadəyə veriləcək. Burada isə 306 ailə üçün gözəl şərait yaradılıb. Sizi bir daha bu hadisə münasibətilə ürəkdən təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Ümumiyyətlə, Pirallahı rayonunun inkişafı uğurlu gedir. Burada infrastruktur obyektləri inşa edilir, yaradılır, binalar tikilir, təmir olunur. Yəni, Pirallahı adası tam yeni görkəm alıb. Artıq bir neçə ildir ki, burada gedən quruculuq işləri çox yaxşı nəticə verir. Siz yaxşı bilirsiniz ki, əvvəllər Pirallahıda vəziyyət o qədər də ürəkaçan deyildi. İndi burada bütün lazımi şərait yaradılıbdır.

Laçın rayonundan məcburi köçkün **Sevda Musayeva** dedi: Çox hörmətli cənab Prezident. Əziz Mehriban xanım. İcazə verin, Sizi Pirallahı sakinləri, - yəni, mən özümü də artıq Pirallahı sakini hesab edirəm, 27 ildir burada məskunlaşmışıq, - məcburi köçkünlər adından və bir təhsil işçisi adından salamlayım, Sizə öz dərin minnətdarlığımı bildirim.

*Ardı 2-ci səh.*



# Qlobal əməkdaşlıq mərkəzi

## Bakı son iki həftədə 3-cü beynəlxalq tədbirə evsahibliyi edir

Yerləşdiyi bölgənin aparıcı dövləti olan Azərbaycan öz yüksəlişi, beynəlxalq arenadakı nüfuzu ilə təsdiq edir ki, regionun lideri statusunu layiqincə daşıyır. Artıq dəfələrlə sübuta yetirilib ki, Cənubi Qafqazı əhatə edən hər hansı beynəlxalq layihə Azərbaycanın iştirakı olmadan həyata keçirilə bilməz.

Cənubi Qafqazla bağlı siyasi sahədə Azərbaycanla hesablaşır, məsləhətləşirlər. Bölgə iqtisadiyyatının əsas ağırlığı da ölkəmizin payına düşür.

Azərbaycanı beynəlxalq miqyasda regionun lideri kimi tanıdan başqa bir məsələ ölkəmizin beynəlxalq tədbirlər məkanına çevrilməsidir. Xüsusilə qeyd etməliyik ki, Azərbaycan bu gün mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə mərkəz kimi tanınır. Humanitar forum üzrə Bakı platformasına isə dünyanın dörd bir yanından elm adamları, siyasətçilər qoşulublar. Azərbaycan həm də regional münaqişələrin, qarşıdurmaların, gərginliyin aradan qaldırılmasında da fəal rol oynayır, barışdırıcı missiya həyata keçirir. Bu mənada hazırda ölkəmiz mühüm siyasi, iqtisadi, idman və digər səpkili beynəlxalq tədbirlərin əsas ünvanıdır.

Bütün bunlar həm də Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin dünyanın beynəlxalq təşkilatları, güc mərkəzləri və böyük ölkələri tərəfindən hörmətlə qarşılanmasının və qəbul edilməsinin əyani təsdiqidir.

*Ardı 3-cü səh.*

# «Sətti» Xəzərin Azərbaycan sektorunda qazma əməliyyatları aparacaq

## "KazMunayGaz"ın bu qurğusu "Caspian Drilling Company"yə etibarlı idarəetməyə verilib

Azərbaycan və Qazaxıstan neft-qaz sənayesinin bir çox sahələrində əməkdaşlıq edir və bu əməkdaşlığı getdikcə şaxələndirirlər. Hər iki ölkənin zəngin neft və qaz yataqları var. Bunların bəziləri Xəzərin Azərbaycan və Qazaxıstan sektorlarında bir-biri ilə yaxın məsafədə yerləşir.

Təsadüfi deyil ki, bir sıra tanınmış beynəlxalq şirkətlər həm Azərbaycan, həm də Qazaxıstan yataqlarında işləyən konsorsiumlarda tərəfdaşlıq edirlər. Məsələn, Rusiyanın "LUKoyl", İtaliyanın "Eni", Fransanın "Total", Yaponiyanın "İtoçu" şirkətləri hər iki ölkədə çalışırlar.

Neft-qaz sahəsində zəngin bilik və böyük səriştəyə malik Azərbaycan və Qazaxıstan mütəxəssisləri uzun illərdir qazandıqları təcrübəni də bir-biri ilə bölüşürlər. Bu gün hər iki ölkənin, həmçinin zəngin neft-qaz və ixrac infrastrukturu var ki, onlar bundan da bəhrələnə bilirlər. Məsələn, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə müəyyən həcmdə Qazaxıstan nefti də nəql olunur.

Bu yaxınlarda Qazaxıstanın "Sətti" özüqalxan üzən qazma qurğusunun Ersay limanından Bakıya gətirilməsi əməkdaşlığın uğurla davam etdiyinin təsdiqidir. "KazMunayGaz"a məxsus qurğu SOCAR-ın Caspian Drilling Company (CDC) MMC-nin müasir dəniz təchizat və logistika bazasına yan alıb.

*Ardı 7-ci səh.*

Ölkədə qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən məqsədyönlü tədbirlər çərçivəsində kənd təsərrüfatının strateji əhəmiyyətli və iqtisadi cəhətdən səmərəli istehsal sahələrinə daha çox diqqət yetirilir. Bu baxımdan ipəkçiliyin inkişafının da böyük potensialı var.



# Ağstafa kümçüləri bu il 5,2 ton barama təhvil vermişlər

Həmin potensialdan Ağstafada daha geniş istifadə olunması üçün real tədbirlər həyata keçirilir. Rayonda ipəkqurdunun yem bazasının yaradılması məqsədilə son 3 ildə 34 mindən çox tut tingi əkilmişdir.

Baramaçılığın inkişafına verilən dövlət dəstəyi bu sahədə uğurların qazanılmasına imkan yaratmış, barama saxlamaq istəyənlərin sayı xeyli artmışdır. Nəticədə rayon üzrə 25 kənddə 34 kümçü ilə müqavilə bağlanmışdır.

2016-cı ildən baramaçılıqla məşğul olan rayon sakinləri qısa vaxt ərzində onun sirlərini dərindən mənimsəmiş və bu gəlirli sahənin inkişafını təmin etmişlər. Keçən il 104 qutu ipəkqurdu götürən kümçülər 3 min 752 kiloqram məhsul təhvil vermişdilər. Onlar bu il daha çox barama istehsal etmək üçün 125 qutu ipəkqurdu götürmüş, 5,2 ton barama təhvil vermişlər.

Rayon icra hakimiyyəti də kümçülərə daim dəstək olur. Son iki ildə rayonun Sadıxlı, Böyük Kəsik, Poylu qəsəbə, Zəlimxan və digər kəndlərin ərazisində yeni tut bağları salınmışdır.

Qıraq Kəsəmən kəndinin sakini Həmid Şükürov bu il 310 kiloqram barama təhvil vermişdir. Həmid Şükürov deyir ki, baramaçılıqda vacib məsələlərdən biri yemdir: "Bu sahədə elə bir çətinliyimiz yoxdur. Çünki əkin sahəmizdə illər öncə əkilmiş istənilən qədər tut ağacı var.

*Ardı 7-ci səh.*

# Prezidentdən məcburi köçkünlərə növbəti dəyərli hədiyyə






*Əvvəli 1-ci səh.*

Qaçqınlara və məcburi köçkünlərə göstərdiyiniz bu diqqət və qayğıya görə Sizə minnətdarlığımı, təşəkkürümü bildirirəm. Azərbaycanın inkişafı, tərəqqisi, dünya birliyində qüdrətli dövlətə çevrilməsi baxımından apardığınız həm xarici, həm daxili siyasəti mən bir təhsil işçisi kimi bəyənir və dəstəkləyirəm. Mən təhsil işçisi olduğuma görə bu sahədən danışacağam. Hər bir dövlətin inkişafı üçün, bilirsiniz ki, əsas onun elmi, təhsilidir. Bu, danılmazdır. Ümummilli lider Heydər Əliyev həmişə müəllimə, təhsilə, elmə böyük qiymət vermişdir. Elə bu baxımdan onun apardığı siyasətin davamını sizlərdə də hiss edirik, görürük.

Sevda Musayeva görülən bütün bu işlərə, onlara göstərilən diqqətə və məcburi köçkün ailələri üçün yeni məktəblərin inşasına, onların müasir avadanlıqla təmin edilməsinə görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya bir daha minnətdarlığını bildirdi.

O dedi: Bir də Mehriban xanım, Sizə gözaydınlığı verirəm. Mən də bir anayam, Siz də bir anasınız. Sizə gözaydınlığı verirəm. Oğlunuz vətən qarşısında öz borcunu şərəflə yerinə yetirib geri qayıdıb. Gözünüz aydın olsun.

**Mehriban xanım Əliyeva:** Çox sağ olun. Allah bütün balaları qorusun.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Təşəkkür edirəm.

Məcburi köçkünlər üçün biz indi bu şəraiti yaradırıq. Hələ də ağır vəziyyətdə yaşayan köçkünlərimiz var və onların problemləri də gündəlikdədir. İndi genişmiqyaslı işlər aparılır ki, tezliklə bütün köçkünlər yaxşı şəraitlə təmin olunsunlar. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı siyasətin nəticəsində torpaqlarımız işğal altına düşüb. Bizim əsas vəzifəmiz ərazi bütövlüyümüzü bərpa etməkdir. Bu istiqamətdə işlər aparılır, həm siyasi-diplomatik sahədə, həm ordu quruculuğu sahəsində.

Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üçün dövlət proqramı da qəbul edilib. Proqram əsasında evlər tikilir, qəsəbələr salınır. Yüzdən çox qəsəbə salınıbdır və bu istiqamətdə bundan sonra da işlər aparılacaq. Qeyd etdiyim kimi, bu il ən azı altı min ailə yeni mənzillərlə təmin ediləcək. Gələn il ondan da çox yeni evlərin tikilməsi nəzərdə tutulur.

**Mehriban xanım Əliyeva:** Bir daha təbrik edirəm.

Sonra Laçın rayonundan məcburi köçkün **Kəmalə Musayeva** dedi: Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım. Biz də Sizi salamlayırıq və məskunlaşdığımız Pirallahı rayonunda Sizi yenidən görməyimizə çox şadıq. Sizin apardığınız uğurlu və məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün doğma respublikamız, doğma Azərbaycanımız gündən-günə yenilənir, sürətli və dinamik inkişaf yolundadır. Biz Sizə çox minnətdarıq, hörmətli cənab Prezident, hörmətli Mehriban xanım. Ona görə ki, Siz daim məcburi köçkünlərə öz diqqət və qayğınızı göstərirsiniz. Hörmətli Mehriban xanım, biz çox yaxşı xatırlayırıq ki, Siz Birinci vitse-prezident təyin olunandan sonra ilk müşavirənizi məhz məcburi köçkünlərin və qaçqınların sosial problemlərinin həllinə həsr etdiniz. Siz xeyirxah, nəcib əməlləriniz ilə bizim xalqımız, vətənimiz üçün seçilmişlərdənsiniz. Bunun üçün biz Sizə çox minnətdarıq.

**Mehriban xanım Əliyeva:** Çox sağ olun, çox minnətdaram.

**Kəmalə Musayeva:** Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım, bizim məskunlaşdığımız Pirallahı rayonuna Sizin diqqətiniz də gözümüzün qarşısındadır. Yəni, çox qısa müddətdə yaradılmasına baxmayaraq, Pirallahı rayonunun da siması gündən-günə, ildən-ilə yenilənir. Pirallahı gündən-günə gözəlləşir. Çox qısa müddətdə burada yeni zavodlar açılmışdır. Şpris zavodu açılmışdır, dərman zavodu tikilir, yeni-yeni parklar salınır. Məcburi köçkünlər üçün belə gözəl qəsəbə salınmışdır. Pirallahı rayonunun sakinləri üçün sosial evlər tikilir. Biz bütün bunlar üçün Sizə dərin minnətdarlığımızı bildiririk.

On nömrəli Birləşmiş Şəhər Xəstəxanasında çalışdığını deyən Kəmalə Musayeva səhiyyə sahəsində aparılan islahatları da vurğuladı. Pirallahı rayon sakinləri, məcburi köçkünlər və səhiyyə işçiləri adından dövlət başçısına və xanımına bir daha minnətdarlığını bildirən Kəmalə Musayeva Prezident İlham Əliyevin rəhbərliyi ilə doğma torpaqlarına qayıdacaqlarına inandıqlarını qeyd etdi.





**Prezident İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm. Xoş sözlərə görə sizə minnətdaram.

Pirallahı rayonunda, doğrudan da, işlər sürətlə gedir. Quruculuq işləri geniş vüsət almışdır. İş yerlərinin yaradılması istiqamətində də işlər aparılır. Qeyd etdiyiniz kimi, bir müddət bundan əvvəl şpris zavodu istifadəyə verildi. Digər böyük dərman preparatları zavodunun tikintisi gedir. Bu zavodun fəaliyyəti nəticəsində yenə də iş yerlərinin yaradılması nəzərdə tutulur. Burada, Pirallahı rayonunda köçkünlər uzun illərdir ki, yaşayırlar. Köçkünlərin əksəriyyəti Laçın rayonundandır. Laçın rayonu 1992-ci ilin may ayında işğal altına düşmüşdür. Laçın və Kəlbəcər rayonlarının işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında əlaqə yaratdı. Ulu öndər Heydər Əliyevin səyləri nəticəsində Ermənistanın işğalçı siyasətinin qarşısının alınması üçün böyük səylər göstərilmişdir. Uğurlu Horadiz əməliyyatı aparılmışdır. Beləliklə, Azərbaycan işğal olunmuş torpaqların bir hissəsini azad edə bilmişdir.

Sonrakı dövrlərdə ordu quruculuğu istiqamətində böyük işlər görüldü. Bu işlərin nəticəsində 2016-cı ildə torpaqlarımızın bir hissəsi də işğalçılardan azad edildi. Ərazi bütövlüyümüzün bərpası bizim üçün əsas məsələdir.

Daha sonra Laçın rayonundan məcburi köçkün **Cəbrayıl Heydərov** dedi: Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım. Sizi Pirallahı rayonunda görməyimizə çox şadıq. Sizi salamlayırıq, "Xoş gəlmisiniz!" deyirik.

Biz sadə insanlar Sizi görməyə həmişə sevinirik. Sizin hər gəlişiniz biz sadə insanlarda qurub-yaratmaq eşqi yaradır. Mən Pirallahı rayonunda məskunlaşmış laçınlı məcburi köçkün kimi onu qeyd etmək istəyirəm ki, Pirallahı rayonu gündən-günə çiçəklənir, inkişaf edir. Sizin rəhbərliyinizlə həyata keçirilən islahatlar nəticəsində Pirallahı rayonunda böyük quruculuq-abadlıq işləri aparılıb, bütün infrastruktur layihələri icra olunub. Mən Pirallahı rayonunda sahibkarlıq fəaliyyəti ilə məşğul oluram. Cənab Prezident, sahibkarlıq fəaliyyətinə başlayanda cəmi iki nəfər işçimiz olub. Bu gün 50-yə yaxın işçimiz var. Biz işimizlə xalqımıza, dövlətimizə xidmət etməyə çalışırıq. Sizin dəstəyiniz, xüsusilə son illərdə verdiyiniz sərəncamlar, fərmanlar, sahibkarlara göstərdiyiniz diqqət və qayğı nəticəsində biz Pirallahı rayonunda sahibkarlıq fəaliyyəti ilə, - bunu tam səmimiyyətlə deyirəm, cənab Prezident, - heç bir maneə olmadan, tam sərbəst məşğuluq. Rayonda da bizim üçün geniş şərait yaradılıb. Qarşımızda duran əsas məqsəd ölkəmizin idxaldan asılılığını azaltmaq, yeni iş yerləri yaratmaq, insanların həyat şəraitini yaxşılaşdırmaqdır. Rayonumuzda aparılan işlərin nəticəsində yeni iş yerlərinin açılması, əlverişli biznes mühitinin yaradılması, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması bizim işimizə də öz müsbət təsirini göstərmişdir.

Cənab Prezident, Pirallahı rayonunda yaşayan məcburi köçkünlərin əksəriyyəti Laçın rayonundandır. Bu rayonda 286 ailə yaşayır, 1104 nəfər məskunlaşıb. 286 ailədən 110-u Laçın rayonundandır.

Cəbrayıl Heydərov dedi ki, onlar da ölkəmizin, dövlətimizin inkişafı üçün əllərindən gələni edir və ən böyük arzuları torpaqlarımızın işğaldan azad olunması, sahibkarlıq fəaliyyətini öz doğma torpaqlarında davam etdirməkdir. Prezident İlham Əliyevin həm daxili, həm də xarici siyasətini dəstəklədiklərini vurğulayan Cəbrayıl Heydərov dövlət başçısının torpaqlarımızın azad olunması üçün haqq səsimizi bütün ali məclislərdən dünyaya çatdırdığını vurğulayaraq dedi: Sonda Pirallahıda məskunlaşmış məcburi köçkünlər adından, ailəmiz adından Sizə minnətdarlığımızı bildirirəm. Həmişə Sizi dəstələyirik, dəstəkləyəcəyik. Allah Sizi qorusun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm. Sahibkarlığın inkişafı ilə bağlı çox ciddi addımlar atılıb. Hesab edirəm ki, bu istiqamətdə nailiyyətlər çox ümidvericidir. Bu gün Azərbaycanda güclü sahibkarlar sinfi yaranıbdır. İqtisadi inkişafımızın şaxələndirilməsi istiqamətində sahibkarların çox böyük rolu var. Dövlət öz tərəfindən çox ciddi islahatların aparılması istiqamətində addımlar atır və bu islahatlar yaxşı nəticələr verir.

Bizim gəlirlərimiz artır. Bu ilin altı ayında gəlirlərimiz təxminən 400 milyon manatdan çox artmışdır. Biz, ilk növbədə, bu vəsaiti sosial layihələrə istiqamətləndiririk. Bildiyiniz kimi, bu il çox ciddi sosial paket təsdiqləndi, müavinətlər, o cümlədən məcburi köçkünlər üçün nəzərdə tutulan müavinətlər 50 faiz artırıldı. Problemli kreditlərlə bağlı olan məsələ öz həllini tapdı. Maaşlar, pensiyalar artırıldı. Bu, əlbəttə ki, islahatların birbaşa nəticəsidir. Çünki bu islahatlar bizə əlavə gəlirlər gətirir və biz bu gəlirləri, ilk növbədə, sosial sahəyə yönəldirik. Sosial sahə bundan sonra da bizim üçün prioritet sahə olacaq. Çünki Azərbaycan vətəndaşları ildən-ilə daha da yaxşı yaşamalıdır və biz buna nail olacağıq.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.







# Azərbaycanla Fransa arasında əlaqələr uğurla inkişaf edir





İyulun 5-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etmək üçün ölkəmizə gələn Fransa Respublikasının Arktika və Antarktika məsələləri üzrə beynəlxalq danışıqlara məsul səfiri, sabiq ekologiya, dayanıqlı inkişaf və energetika naziri xanım Seqolen Ruayal ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə birgə foto çəkdirildi.

Birinci vitse-prezident Mehriban Əliyeva Seqolen Ruayalın ölkəmizə səfərinin uğurlu keçəcəyinə əminliyini ifadə etdi. Birinci vitse-prezident Azərbaycanla Fransa arasında bir çox sahələr üzrə əlaqələrin inkişaf etdiyini məmnunluqla qeyd etdi, siyasi əlaqələrin ən yüksək səviyyədə olduğunu vurğuladı. Mehriban Əliyeva ötən il Prezident İlham Əliyevin, bu il isə özünün Fransaya səfərinin, aparılan danışıqların, imzalanan sənədlərin siyasi əlaqələrin yüksək səviyyəsinin göstəricisi kimi dəyərləndirdi.

İqtisadi sahədə də əməkdaşlığın uğurla inkişaf etdiyini deyən Birinci vitse-prezident bu istiqamətdə yaxşı potensialın mövcudluğunu qeyd etdi. Diqqətə çatdırdı ki, Azərbaycan Cənubi Qafqazda Fransanın ən böyük ticarət tərəfdaşıdır və ölkələrimiz arasında ticarət dövriyyəsində müsbət dinamika var. "Xoş haldır ki, ənənəvi tərəfdaşlıq sahəsi olan enerji əməkdaşlığı ilə yanaşı, qeyri-neft sektorunda da əməkdaşlıq genişlənir", - deyən Birinci vitse-prezident bir sıra Fransa şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətini qeyd etdi, yüksək texnologiyalar, nəqliyyat, şərabçılıq kimi sahələrdə əlaqələrin möhkəmləndiyini bildirdi.

Ölkələrimiz arasında humanitar sahədə əməkdaşlığın əhəmiyyətini xüsusi vurğulayan Mehriban Əliyeva paytaxtımızda Azərbaycan və Fransa prezidentlərinin iştirakı ilə təməli qoyulan Bakı Fransız Liseyinin və hər 2 ölkənin dövlət başçılarının təşəbbüsü ilə yaradılan Azərbaycan-Fransız Universitetinin uğurla fəaliyyət göstərdiklərini qeyd etdi, humanitar sahənin ölkələrimizin və xalqlarımızın bir araya gətirilməsində böyük rol oynadığını vurğuladı. Birinci vitse-prezident Mehriban Əliyeva son vaxtlar bu istiqamətdə görülən işlərdən danışaraq, Azərbaycanın və Fransanın şəhərləri arasında əməkdaşlıq və dostluq sazişlərinin bağlanmasını ölkələrimiz və xalqlarımız arasında dostluq əlaqələrinin daha da inkişaf etməsinə şərait yaratdığını dedi. Mehriban Əliyeva bir daha qonağı ölkəmizdə salamlayaraq ona uğurlu səfər arzuladı.

Fransanın Arktika və Antarktika məsələləri üzrə beynəlxalq danışıqlara məsul səfiri Seqolen Ruayal Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşməyin onun üçün şərəf olduğunu bildirdi. Qonaq Mehriban Əliyevanın bu yaxınlarda Parisə səfərini xatırlayaraq bu səfəri yüksək dəyərləndirdi. Görüşdən əvvəl Bakıdakı Azərbaycan-Fransız Universitetinə getdiyini qeyd edən Seqolen Ruayal belə layihələrin 2 ölkə arasında qurulan əməkdaşlığı təcəssüm etdirdiyini vurğuladı.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edildi.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə şəxsən öz adımdan və Tunis xalqı adından səmimi təbriklərimi çatdırmaqdan məmnunluq hissi duyuram. Sizə cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına davamlı tərəqqi və rifah arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələrinin xalqlarımızın mənafeyi naminə daha da güclənməsində maraqlı olduğumuzu Zati-alinizə bildirmək mənə xoşdur.

*Dərin hörmətlə,*

***Beji Kaid əs-SEBSİ,***
***Tunis Respublikasının Prezidenti***

# Milli Məclis Sədrinin birinci müavini AŞ PA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi ilə görüşüb

İyulun 5-də Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov AŞ PA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennakla görüşüb.

AZƏRTAC xəbər verir ki, birinci vitse-spiker Milli Məclisin AŞ PA ilə münasibətlərin inkişaf etdirilməsinə, hər iki tərəf üçün faydalı olan əməkdaşlığın dərinləşməsinə önəm verdiyini deyib. Bildirib ki, bu əməkdaşlıq qarşılıqlı hörmətə əsaslanmalı və tərəflərin maraqlarına cavab verməlidir.

Ziyafət Əsgərov qeyd edib ki, nümayəndə heyətimizin üzvləri qurumun tədbirlərində mütəmadi iştirak edir, müzakirə olunan məsələlərə Azərbaycan tərəfinin mövqeyini çatdırırlar. O, AŞ PA Monitorinq Komitəsinin həmməruzəçisi qismində qonağın ölkəmizə səfərinin əlaqələrin möhkəmləndirilməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib. Qonağın səfər müddətində ölkəmizdə gedən prosesləri diqqətlə izləyəcəyinə və əldə etdiyi məlumatları öz hesabatında obyektiv şəkildə dəyərləndirəcəyinə ümidvar olduğunu qeyd edib.

Milli Məclis Sədrinin birinci müavini Azərbaycanda son zamanlar uğurla həyata keçirilən sosial-iqtisadi, hüquqi islahatlar, bu proseslərin parlament tərəfindən dəstəklənməsi barədə məlumat verib. Vurğulanıb ki, müasir dövrün tələblərinə uyğun olaraq ölkənin qanunvericilik bazası təkmilləşdirilir.

Görüşdə ölkəmizin fəal iştirak etdiyi enerji layihələri barədə söhbət açılıb və bunun dövlətimizin iqtisadi qüdrətinin möhkəmlənməsində, beynəlxalq səviyyədə nüfuzunun daha da artmasında böyük rol oynadığı bir daha diqqətə çatdırılıb.

AŞ PA Monitorinq Komitəsinin həmməruzəçisi Stefan Şennak ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən danışıb. Qonaq bildirib ki, səfərin məqsədi ölkədəki vəziyyətlə yaxından tanış olmaq, Azərbaycanla AŞ PA arasında münasibətlərin bu günü və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparmaqdır. S.Şennak təmsil etdiyi təşkilatın Azərbaycanla əməkdaşlığın dərinləşməsində maraqlı olduğunu söyləyib.

Söhbət zamanı tərəflər demokratiyanın inkişafı, insan hüquq və azadlıqlarının təmin edilməsi, regional münaqişələr və onların həlli yolları, bir sıra digər aktual məsələlər barədə fikirlərini bölüşüblər.

# Yeni Azərbaycan Partiyası ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında birgə fəaliyyət planı imzalanıb



İyulun 5-də Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində Yeni Azərbaycan Partiyası ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə fəaliyyət planının təqdimetmə mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov bildirib ki, Yeni Azərbaycan Partiyası ötən dövr ərzində ekoloji mahiyyət kəsb edən layihələr həyata keçirib.

Partiya tərəfindən ağacəkmə aksiyaları keçirilib, ölkəmizdə yaşıllıqların salınması prosesində YAP üzvləri fəal şəkildə iştirak ediblər.

Dünyada ətraf mühitin qorunmasının qlobal probleme çevrildiyini deyən Baş Nazirin müavini bu məsələnin hər zaman aktual olduğunu diqqətə çatdırıb. Əli Əhmədov BMT səviyyəsində bu qlobal məsələyə dair tədbirlərin həyata keçirildiyini söyləyib. O, Azərbaycan Prezidenti İlham Əliyevin siyasətində ölkəmizdə ekoloji tarazlığın təmin olunmasının, ətraf mühitin qorunmasının, yaşıllıq zolaqlarının salınmasının və digər ekoloji məsələlərin prioritet olduğunu vurğulayıb.

Əli Əhmədov onu da qeyd edib ki, Yeni Azərbaycan Partiyasının ekoloji mahiyyət kəsb edən layihələrinə Ekologiya və Təbii Sərvətlər Nazirliyi hər zaman dəstək verib. "Biz bu istiqamətdəki layihələrimizi birgə əməkdaşlıq şəraitində həyata keçirmişik", - deyən YAP sədrinin müavini buna nümunə olaraq "700 min ağac əkək" layihəsini xatırladıb. Onun sözlərinə görə, bu layihə çərçivəsində Bakı şəhərində böyük yaşıllaşdırma işləri həyata keçirildi. Eyni zamanda YAP-ın yerli strukturları bölgələrdə ağacəkmə aksiyaları reallaşdırıb. Bu layihənin reallaşmasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi partiyaya böyük dəstək verib.

Əli Əhmədovun fikrincə, Yeni Azərbaycan Partiyası ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə fəaliyyət planı qarşılıqlı əməkdaşlığı daha da gücləndirəcək. Fəaliyyət planı çərçivəsində müxtəlif layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

Tədbirdə çıxış edən Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev Yeni Azərbaycan Partiyası ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edib. O bildirib ki, ətraf mühitin qorunması dövlət siyasətinin prioritetlərindən biridir və Prezident İlham Əliyev bu məsələni xüsusi diqqət mərkəzində saxlayır.

Yeni Azərbaycan Partiyasının böyük potensiala sahib olduğunu deyən nazir qeyd edib ki, müxtəlif ekoloji layihələrin həyata keçirilməsində partiyanın potensialından istifadə olunması yüksək nəticələr verir. Bu baxımdan, Yeni Azərbaycan Partiyası ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə fəaliyyət planı böyük əhəmiyyət kəsb edir. M.Babayev birgə fəaliyyət planının uzun müddət davam edəcəyinə ümidvar olduğunu bildirib.

Sonda Baş Nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov və Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev birgə fəaliyyət planını imzalayıblar.

# Lüksemburqda ATƏT PA-nın Siyasi Məsələlər və Təhlükəsizlik üzrə Ümumi Komitəsinin iclasında Azərbaycan və Ermənistan nümayəndə heyətləri arasında qızğın debatlar gedir

Lüksemburqda ATƏT PA-nın Siyasi Məsələlər və Təhlükəsizlik üzrə Ümumi Komitəsinin iclası davam edir. İrlandiyalı deputat Alan Farrellin "Təhlükəsizliyin möhkəmləndirilməsi naminə davamlı inkişafa kömək: parlamentarilərin rolu" mövzusunda məruzəsində dondurulmuş münaqişələr məsələsinə toxunuldu. Gözlənildiyi kimi, bu məruzədən sonra təklif olunmuş yekun qətnaməyə düzəlişlər barəsində kəskin debatlar başlanıb.

AZƏRTAC xəbər verir ki, çıxış üçün söz alan Ermənistan deputatı Hayk Koncoryan yenə "köhnə valı" işə salaraq dedi ki, ayrıca götürülmüş hər bir münaqişənin özünəməxsus cəhətləri var, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi guya "insan haqları" sahəsinə aiddir. Koncoryan iclas iştirakçılarını daha da çaşdırmağa, onları "heyrətləndirməyə" çalışaraq bəyan edib ki, Azərbaycan özü ATƏT-ə daxil olarkən xalqların təyini-müqəddərat hüququnu tanıyıb. Lakin bu halda Koncoryan bir məsələni dəqiqləşdirməyi unutdu ki, Bakı bunu heç vaxt gizlətməyib: bəli, Azərbaycan xalqların təyini-müqəddərat hüququnu tanıyır və həmişə tanıyıb, amma Azərbaycan beynəlxalq hüququn bu prinsipini erməni "nəzəriyyəçilərin" yozmağa çalışdığı kimi təhrif olunmuş interpretasiyada deyil, 1975-ci il Helsinki Yekun Aktında təsbit olunduğu kimi tanıyır.

Erməni nümayəndədən sonra çıxış üçün söz almış ATƏT PA-nın vitse-prezidenti, Azərbaycan Milli Məclisinin deputatı Azay Quliyev məruzəçinin bir faktı etiraf etməsinə görə ona təşəkkürünü bildirdi ki, bütün ATƏT məkanındakı dondurulmuş münaqişələrin, o cümlədən Azərbaycanın Dağlıq Qarabağ regionunun və ona bitişik yeddi rayonun işğal edilməsi ilə əlaqədar münaqişənin nizamlanması regionda davamlı sabitliyin, təhlükəsizliyin və sülhün zəruri şərtidir. O, məruzəçinin bu mövqeyini dəstəklədiyini bildirdi ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi və ATƏT PA-nın bəyannamələri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün hüquqi baza yaradır. A.Quliyev, eyni zamanda komitə üzvlərini qətnamə layihəsinin ilkin variantını dəstəkləməyə və Ermənistan nümayəndə heyətinin təklif etdiyi düzəlişi rədd etməyə çağırdı. Deputat bu çağırışını əsaslandırmaq üçün ATƏT-in 1992-ci il tarixli qərarına istinad etdi. Həmin sənəddə bu münaqişə məhz "Azərbaycanın Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə" adlandırılıb. A.Quliyev xatırlatdı ki, 1992-ci ilin mayından etibarən bu münaqişə Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə tammiqyaslı müdaxiləsinə və nəinki Dağlıq Qarabağ regionunun özünün, həm də ona bitişik yeddi rayonun işğalına çevrilib və hər rayonun işğalından sonra BMT Təhlükəsizlik Şurası bir-birinin ardınca qətnamələr qəbul edib, lakin Yerevan bu qətnamələrin heç birinə məhəl qoymayıb. Azərbaycanlı siyasətçi dedi: "Beləliklə, həmin qətnamələrdən sonra biz Ermənistan tərəfindən bu regionun hüdudlarından kənarda işğal edilmiş əraziləri də nəzərə alaraq həmin münaqişəni yalnız "Dağlıq Qarabağ münaqişəsi" adlandıra bilmərik".




A.Quliyev çıxışının sonunda xatırlatdı ki, beynəlxalq birlik Dağlıq Qarabağ regionunu və ona bitişik yeddi rayonu Azərbaycanın tərkib hissəsi kimi tanıyır, qeyri-qanuni işğal isə suverenliyin və yurisdiksiyanın dəyişməsinə səbəb olmur.

Deputat Ani Samsonyan özünün dolaşıq və rabitəsiz çıxışında BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin relevantlığını şübhə altına almağa çalışdı və nədənsə belə "qərara aldı" ki, beynəlxalq birlik işğal edilmiş Dağlıq Qarabağdakı oyuncaq rejimi guya "münaqişənin bərabərhüquqlu tərəfi" kimi tanıyıb.

Deputat Tahir Mirkişili erməni həmkarının çıxışına cavab olaraq xatırlatdı ki, insan haqları, ilk növbədə, iki icmadan ibarət Dağlıq Qarabağ regionunun sakinlərinə aiddir. Bu sakinlərin bir qismi etnik prinsipə görə öz doğma yurdlarından qovulması səbəbindən kənarda yaşamağa məcbur olub. T.Mirkişili komitə üzvlərini qətnamə layihəsini ilkin formada dəstəkləməyə çağırdı.

Debatların sonunda çıxış edən Mariya Karapetyan da öz həmvətənləri kimi, Ermənistan-Azərbaycan münaqişəsini digər dondurulmuş münaqişələrdən fərqləndirməyə və onu hansısa "unikal" keys hesab etməyə çağırdı və həmkarlarından Ermənistanın təklif etdiyi düzəlişi dəstəkləmələrini xahiş etdi.

Komitənin iclası bu gün öz işini davam etdirəcək və debatlar da davam edəcək.

*Əvvəli 1-ci səh.*

# Qlobal əməkdaşlıq mərkəzi

Beləliklə, düzgün və düşünülmüş siyasət, cəmiyyətdəki əmin-amanlıq, sabitlik, dünyanın müxtəlif qütblərində dayanan dövlətlərlə yaxşı münasibətlər, beynəlxalq təşəbbüslərimiz bu gün ölkəmizi dünyada yalnız sabitlik və inkişaf deyil, həm də əməkdaşlıq məkanı kimi təqdim edir. Azərbaycanın dünyanın ən etibarlı sülh və tərəfdaşlıq platforması olması artıq beynəlxalq səviyyədə qəbul olunan reallıqdır. Respublikamız bu sahədə daim öz təcrübəsini nümayiş etdirməklə və beynəlxalq səviyyədə mükəmməl nümunələr ortaya qoymaqla birləşdirici və barışdırıcı faktora çevrilib. Bu mənada respublikamızın müstəqillik illərində qazandığı ən mühüm nailiyyətlərdən biri də müharibələrə, humanitar böhranlara qarşı birgə beynəlxalq mübarizənin təşkili, bu istiqamətdə mövcud olan və ya yarana biləcək problemlərin aradan qaldırılması yollarının müəyyənləşdirilməsi ilə bağlı qlobal fəaliyyətin istinad nöqtəsinə çevrilməsidir. Hətta Rusiyanın və ABŞ-ın ali hərbi rəhbərlikləri də dialoq və məsləhətləşmə üçün Bakını seçirlər.

Son iki həftədə Azərbaycan 3-cü beynəlxalq tədbirə evsahibliyi etməklə bir daha təsdiqlədi ki, ölkəmiz bütün dünyada qəbul edilən ideal məkandır. İyunun 20-21-də Bakıda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi Baş Assambleyasının 53-cü plenar sessiyasında üzv dövlətləri təmsil edən 150-dən artıq qonaq iştirak etdi. Xüsusilə qeyd edilməlidir ki, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının, ATƏT Parlament Assambleyasının, NATO Parlament Assambleyasının, MDB Beynəlxalq Parlament Assambleyasının, İƏT Parlament İttifaqının, Baltik Dənizi Parlament Konfransının, Almaniya Bundestaqının, İsrail Knessetinin, Fransa Milli Assambleyasının və Senatının, eləcə də Misir, Belarus, Slovakiya parlamentlərindən də müşahidəçilərin iştirakı QDİƏT PM-nin Bakıda keçirilən 53-cü sessiyasının beynəlxalq miqyasda kifayət qədər maraqla qarşılandığını göstərdi.

Bundan iki gün sonra isə Azərbaycanda növbəti beynəlxalq tədbir start götürdü. İyunun 24-26-da Bakıda BMT və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə BMT-nin Dövlət Xidmətləri Forumu keçirildi. Heydər Əliyev Mərkəzində baş tutan forumda dünyanın 190-dan çox ölkəsindən 800-dən artıq nümayəndə iştirak etdi.

BMT-nin Dövlət Xidmətləri Forumunun məqsədi dövlət xidmətlərinin göstərilməsi ilə bağlı aktual məsələlər üzrə müzakirələrin aparılması, habelə bu istiqamətlərdə qabaqcıl təcrübələrin mübadiləsidir. Bu baxımdan sözügedən tədbir dövlət xidmətlərinin aktual problemləri, bu sahədə innovasiyalar və texnologiyaların tətbiqi, eləcə də digər vacib məsələlərin müzakirə edildiyi, o cümlədən Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün beynəlxalq platformadır.

Forumun Azərbaycanda keçirilməsinə gəldikdə isə, buna zəmin yaradan ən önəmli amillər ölkəmizdə dövlət xidmətləri sahəsində qazanılmış nailiyyətlərdir. Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycanda hökumət-vətəndaş münasibətlərində daha çevik mexanizmlərin tətbiqi, bürokratik əngəllərin aradan qaldırılması istiqamətində vacib addımlar atılıb. Bu da nəticə etibarilə ölkəmizdə vətəndaşlara dövlət xidmətlərinin göstərilməsini də yeni keyfiyyət mərhələsinə yüksəldib.

İyunun 30-dan isə Bakıda UNESKO-nun (BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı) Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası start götürdü. Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən Azərbaycan bu mötəbər qurumun növbəti sessiyasına evsahibliyi etmək hüququ əldə edib. Azərbaycan üçün mühüm əhəmiyyətə malik belə bir qərarın qəbul olunması ölkəmizin UNESKO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Prezident İlham Əliyev iyulun 10-dək davam edəcək sessiyanın Bakıda layiqincə keçirilməsini təmin etmək məqsədilə müvafiq sərəncam imzalayıb və Təşkilat Komitəsi yaradılıb. Prezidentin başqa bir sərəncamı ilə sessiyada iştirakla əlaqədar Azərbaycana gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurları sadələşdirilib. Bununla da UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda yüksək səviyyədə keçirilməsi təşkil olunub.

UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında 2500-ə yaxın qonaq iştirak edir. Dünyanın müxtəlif ölkələrini təmsil edən iştirakçılar dünya irsinin qorunması üçün görülməsi vacib olan tədbirləri müzakirə edirlər.

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət respublikamızı qlobal siyasi, iqtisadi, hərbi, humanitar, mədəni məsələlərin müzakirə olunduğu platformaya çevirib. Bu tədbirlərin ən böyük əhəmiyyəti isə odur ki, Azərbaycan beynəlxalq miqyasda təbliğ olunur, ölkəmizin üzləşdiyi ədalətsizliklərlə bağlı həqiqətlər dünyaya çatdırılır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 23-cü bəndlərini rəhbər tutaraq, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1447-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

"Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 685; 2006, № 11, maddə 932; 2007, № 5, maddə 442, № 11, maddə 1053; 2016, № 6, maddə 969, № 12, maddə 1989; 2017, № 3, maddə 346, № 6, maddələr 1024, 1046, № 7, maddə 1266, № 12 (I kitab), maddə 2255; 2018, № 6, maddə 1161; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1539-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 33.1.9-4-cü maddə əlavə edilsin:

"33.1.9-4. yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin dövlət qeydiyyatı zamanı mobil nömrənin identifikasiyası məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sorğusuna real vaxt rejimində cavab vermək;".

2. 33.2-ci maddədə "və 33.1.4-cü" sözləri ", 33.1.4-cü və 33.1.9-4-cü" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2019-cu il*

## "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1590-VQD nömrəli Qanununun tətbiqi və "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1590-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 709; 2006, № 5, maddə 404, № 11, maddə 947; 2007, № 6, maddə 601; 2009, № 4, maddə 226; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384; 2017, № 3, maddələr 374, 382; № 6, maddələr 1066, 1095, № 8, maddə 1521, № 12, maddə 2322; 2018, № 6, maddə 1237) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənddə "maddəsində" sözü " və 33.1.9-4-cü maddələrində" sözləri ilə əvəz edilsin;

2.2. 2.11-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.12-ci bənd əlavə edilsin:

"2.12. həmin Qanunun 33.1.9-4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi nəzərdə tutulur.".

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2019-cu il*

## Sahibkarlığın dəstəklənməsi məqsədilə xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirdikləri proqramların (layihələrin) əlaqələndirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanının 6.16-cı bəndinin icrası ilə əlaqədar **qərara alıram:**

1. Xarici dövlətlərin və beynəlxalq təşkilatların Azərbaycan Respublikasında mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədilə kredit, texniki yardım və ya qrant formasında maliyyələşdirdikləri proqramlar (layihələr) Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (bundan sonra - Agentlik) ilə əlaqəli şəkildə həyata keçirilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin (bundan sonra - KOB subyektləri) dəstəklənməsi məqsədilə xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla bağlanılan kredit, texniki yardım və ya qrant alınmasına dair sazişlərə əsasən (bundan sonra - sazişlər) həyata keçirilən proqramlara (layihələrə) Agentliyin cəlb olunmasını təmin etsin;

2.2. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlətin adından yaradılan publik hüquqi şəxslər və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər:

3.1. sazişlər üzrə həyata keçirilən proqramlarda (layihələrdə) KOB subyektlərinə dəstəyin istiqamətləri, məqsəd və məzmunu, gözlənilən nəticələr, belə dəstəklə əhatə olunan KOB subyektlərinin sayı barədə məlumatların sazişlərlə bağlı danışıqlara başlanılmasına dair təkliflərə əlavə olunmasını təmin etsinlər;

3.2. sazişlər üzrə həyata keçirilən proqramlara (layihələrə) cəlb edilən KOB subyektlərinin seçilməsini "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanının 8.2-ci bəndində nəzərdə tutulan reyestr vasitəsilə həyata keçirsinlər;

3.3. KOB subyektlərinin adları ayrı-ayrılıqda qeyd edilməklə, KOB subyektlərinə ünvanlanmış dəstək tədbirləri haqqında məlumatların Agentliyə təqdim olunmasını təmin etsinlər;

3.4. sazişlərin əhatə etdiyi proqramlar (layihələr) üzrə KOB subyektləri üçün həyata keçirilmiş dəstək tədbirləri haqqında aşağıda qeyd edilən məlumatların ildə bir dəfədən az olmayaraq, proqram (layihə) tam başa çatdıqdan sonra isə yekun məlumatların Agentliyə təqdim olunmasını təmin etsinlər:

3.4.1. KOB subyektinin dəstək aldığı proqramın (layihənin) məqsədi, istiqaməti və məzmunu;

3.4.2. müvafiq proqram (layihə) vasitəsilə dəstək almış KOB subyektinin adı;

3.4.3. KOB subyektinə göstərilmiş dəstəyin növü, forması və ölçüsü;

3.4.4. KOB subyektinə dəstək göstərmiş təşkilatın adı;

3.4.5. KOB subyektinə dəstəyin göstərilmə müddəti və tarixi;

3.4.6. dəstəyin göstərilməsi, yaxud dayandırılması haqqında qərarın tarixi;

3.4.7. dəstəkləmə qaydasının və şərtlərinin pozulması, o cümlədən məqsədli təyinatını pozmaqla dəstəkdən istifadə edilməsi haqqında məlumat (olduğu halda);

3.4.8. dəstək proqramının (layihənin) KOB subyektinin sahibkarlıq fəaliyyətinə təsiri.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin məlumatları əsasında xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirdikləri KOB subyektlərinin dəstəklənməsi proqramları (layihələri) üzrə qeydə alınan texniki yardım və qrant müqavilələri (qərarları) barədə məlumatların Agentlik vasitəsilə ümumiləşdirilməsini təmin etsin.

5. Agentlik:

5.1. xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirdikləri proqramların (layihələrin) reallaşdırılması nəticəsində dəstək almış KOB subyektlərinə dair məlumatların "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanının 8.2-ci bəndində nəzərdə tutulan reyestrə daxil edilməsini təşkil etsin;

5.2. təqdim edilmiş məlumatlar əsasında xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirdikləri proqramların (layihələrin) KOB subyektlərinin inkişafına təsiri səviyyəsini öyrənərək, növbəti dövrlərdə xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirəcəyi proqramların (layihələrin) istiqamətlərinə dair təkliflər hazırlanmasını təmin etsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2019-cu il*

## "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqları və sərhəd hərbi dəniz bayraqları haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli 283 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1331-VKQ nömrəli Konstitusiya Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli 283 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 1983) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqlarının təsviri"nin 3-cü hissəsində "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Azərbaycan Respublikası" sözləri "Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyul 2019-cu il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389; Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1520-VQD, 1522-VQD nömrəli, 29 mart tarixli 1534-VQD, 1538-VQD, 1549-VQD nömrəli, 9 aprel tarixli 1558-VQD, 1561-VQD, 1562-VQD nömrəli, 3 may tarixli 1577-VQD, 1583-VQD nömrəli, 17 may tarixli 1595-VQD nömrəli, 13 iyun tarixli 1609-VQD nömrəli qanunları) 43.1-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"43.1. Rayon (şəhər) məhkəmələri bu Məcəllənin 157-188, 190, 191.1, 195.1, 196, 197, 204-208, 221, 227, 229, 251.3, 253-1.1, 262, 263, 264.0.2, 264.0.3, 264.0.5, 267, 272.1, 272.3, 284.2, 286, 290.3, 295.6, 295.7, 296.2, 325.1, 326, 327.8, 332.4-332.7, 333, 334, 335.5, 335.6, 337.5, 337.6, 338.7, 339.2-339.5, 340.2, 341, 342.8, 342.9, 343, 349, 351, 353.5, 361, 363, 363-1, 363-2, 368-379, 381-383, 387-388-1, 393-1.2, 394.0.5 (tikintisinə icazə tələb olunan açıq məkanda reklam qurğularının tikintisi zamanı tikinti norma və qaydalarının pozulmasına münasibətdə), 394.0.6 (tikintisinə icazə tələb olunan açıq məkanda reklam qurğularının istismara verilməsi qaydalarının pozulmasına münasibətdə), 394.0.7 (müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun göstərişlərinə və qərarlarına əməl etməməsinə münasibətdə), 394-1, 395.1 (həmin əməlin müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun sərəncamına verilmiş torpaq sahəsində bu qurumun sərəncamında olduğu müddətdə törədilməsi hallarına münasibətdə), 395.1-1, 395.2 (həmin əməlin müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun sərəncamına verilmiş torpaq sahəsində bu qurumun sərəncamında olduğu müddətdə törədilməsi hallarına münasibətdə), 398, 399, 401-404, 406-409, 410.3, 411-1.2, 412, 413, 428.7, 428.10, 431, 432.3, 438.2, 438.3, 441, 442, 443.1, 445-1, 448, 449, 451, 456, 459.1, 459.2, 459-1, 462 (siyasi partiyalara münasibətdə), 464-466, 469.1 (auditorun peşə məsuliyyətinin icbari sığortasına münasibətdə), 479-481, 482.1, 496.2, 499.2, 502-504, 506-508, 510, 511, 513, 515-517, 517-1, 517-2, 520, 523, 525-535, 537.1, 538-1, 544.1, 547, 549-554, 558-561, 562.1, 562.2, 563.2, 567-569, 571, 573, 574, 590-592, 592-1, 594-596, 598 (vəkillərə və auditor xidməti göstərən şəxslərə münasibətdə), 599-602, 602-1 (müvafiq icra hakimiyyəti orqanı tərəfindən inzibati xətaların törədilməsinə münasibətdə), 603, 605, 606.1, 608 və 609-cu maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxırlar.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2019-cu il*

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1627-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1627-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyul 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1997-ci il 7 aprel tarixli 568 nömrəli, "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 16 noyabr tarixli 312 nömrəli, "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2006-cı il 24 fevral tarixli 373 nömrəli və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2006-cı il 6 mart tarixli 377 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Sosial sığorta haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1482-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 mart tarixli 583 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 349; 2006, № 7, maddə 587; 2007, № 12, maddə 1226; 2009, № 8, maddə 630; 2016, № 6, maddə 1021, № 9, maddə 1464; 2018, № 12 (I kitab), maddə 2578) aşağıdakı məzmunda 2.1-3-cü bənd əlavə edilsin:

"2.1-3. həmin Qanunun 18-ci maddəsinin 1-ci hissəsinin on birinci abzasında "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;".

2. "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 16 noyabr tarixli 312 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1007; 2011, № 7, maddə 633; 2017, № 5, maddə 826) 2.3-cü bəndinə "6.1-ci," sözlərindən sonra "6.3-cü," sözləri əlavə edilsin.

3. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 24 fevral tarixli 373 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 90, № 12, maddə 1034; 2007, № 1, maddə 7, № 10, maddə 942; 2008, № 5, maddələr 373, 374, № 8, maddə 727; 2011, № 7, maddə 633, № 12, maddə 1143; 2016, № 9, maddə 1466) 2.4-cü bəndinə "10.1-ci," sözlərindən sonra "10.1-1-ci," sözləri əlavə edilsin.

4. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 228; 2009, № 11, maddə 883; 2013, № 6, maddə 631; 2016, № 9, maddə 1467; 2017, № 5, maddə 756; 2018, № 2, maddə 185; 2018, № 12 (I kitab), maddə 2580; 2019, № 2, maddə 231; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 aprel tarixli 655 nömrəli Fərmanı) 2.3-cü bəndinə "30.1-ci (birinci və ikinci cümlələrində)," sözlərindən sonra "30.1-1-ci," sözləri və "31.1-ci," sözlərindən sonra "31.1-1-ci," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyul 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə" 2017-ci il 5 avqust tarixli 1569 nömrəli, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 18 iyul tarixli 213 nömrəli və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 24 avqust tarixli 233 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1483-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 mart tarixli 584 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 avqust tarixli 1569 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1516; 2018, № 12 (I kitab), maddə 2579) 2.3-cü bəndinə "13.1-ci," sözlərindən sonra "13.1-1-ci," sözləri əlavə edilsin.

2. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1499, № 11, maddə 2239) 2.4-cü bəndinə "32.3-cü" sözlərindən sonra ", 32-1-ci" sözləri əlavə edilsin.

3. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 233 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1683) 2.20-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.21-ci bənd əlavə edilsin:

"2.21. həmin Qanunun 8.0.16-cı maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyul 2019-cu il*

# Prezident Kitabxanasında "Azərbaycan diplomatiyası" adlı elektron resursun təqdimatı olub



İyulun 5-də Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında Azərbaycan diplomatiyasının 100 illiyi münasibətilə "Azərbaycan diplomatiyası" adlı elektron resursun təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri açan Prezident Kitabxanasının direktoru Mayıl Əhmədov elektron resursun yaradılmasında məqsədin Azərbaycan diplomatiyasının keçdiyi keşməkeşli tarixi yolu işıqlandırmaq və təbliğ etmək olduğunu deyib. "Elektron resursun təqdimat mərasiminin diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü ərəfəsində keçirilməsinin xüsusi əhəmiyyəti var. Məhz 1919-cu il iyul ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin katibliyinə dair müvəqqəti təlimatın qəbul edilməsi tarixi əsas tutularaq Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 24 avqust tarixli Sərəncamı ilə hər il iyul ayının 9-u diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü kimi təsis edilib", - deyə o əlavə edib.

"Diplomatiya tarixi" adlı fəsil 6 bölmədən ibarətdir. "Azərbaycan Xalq Cümhuriyyəti dövrü" adlanan birinci bölmədə Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi günündən yeritdiyi xarici siyasətin mühüm istiqamətləri, Xarici İşlər Nazirliyinin fəaliyyəti, diplomatik korpusun formalaşdırılması, dövlət müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınması istiqamətində Paris Sülh Konfransına ezam edilən diplomatik heyətin fəaliyyəti, xarici dövlətlərdə diplomatik nümayəndəliklərin açılması, digər dövlətlərdə yaşayan azərbaycanlıların hüquqlarının qorunması, Ermənistanın hərbi təcavüzünə qarşı həyata keçirilən xarici siyasət barədə ətraflı məlumat verilir. Bu bölmədə, həmçinin Xalq Cümhuriyyəti dövrünün 85 diplomatı haqqında qısa məlumat öz əksini tapıb.

Bu fəslin "Sovetlər dövrü" adlanan bölməsində 1920-1922-ci illərdə sovet Azərbaycanında Xarici İşlər Komissarlığının yaranması, onun fəaliyyətinin getdikcə məhdudlaşdırılması, nəticədə Moskvanın tam nəzarətinə keçməsi və komissarlığın ləğvi barədə məlumat verilir. Yalnız İkinci Dünya müharibəsinin gedişində Azərbaycan məsələsinin yenidən beynəlxalq müzakirələrin obyektinə çevrilməsi nəticəsində 1944-cü ilin martında Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığı bərpa edilmişdi. Azərbaycan SSR Xarici İşlər Nazirliyi SSRİ-nin süqutunadək fəaliyyət göstərmişdir. Ötən əsrin 70-80-ci illərində Azərbaycanın beynəlxalq iqtisadi, mədəni, elmi-texniki və digər sahələrdə əlaqələrinin coğrafiyası daha da genişlənmişdi.

Elektron resursun "Müstəqillik dövrü" adlanan bölməsində Azərbaycanın beynəlxalq təşkilatlar və dünya dövlətləri tərəfindən tanınması prosesi, Xarici İşlər Nazirliyinin fəaliyyətinin təşkili haqqında lazımi sənədlərin qəbul edilməsi barədə məlumat verilir. Azərbaycanın öz xarici siyasətini beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında qurması qeyd edilir. Hazırda Azərbaycan Respublikasının 183 xarici ölkə ilə diplomatik əlaqələrinin qurulduğu, 59 ölkədə səfirliyinin, 9 şəhərdə baş konsulluğunun, 17 ölkədə fəxri konsulluğunun, 19 beynəlxalq təşkilat yanında nümayəndəliyinin, eyni zamanda, Azərbaycanda 66 ölkənin səfirliyinin və 3 ölkənin 4 baş konsulluğunun, 13 ölkənin fəxri konsulluğunun, 21 beynəlxalq təşkilatın nümayəndəliyinin fəaliyyət göstərdiyi barədə məlumat verilir. Hazırda ölkə daxilində və xarici dövlətlərdə, beynəlxalq və regional təşkilatlarda Azərbaycanın xarici siyasət kursunu həyata keçirən 1000-ə yaxın peşəkar diplomat korpusu fəaliyyət göstərir. Bu gün diplomatik korpusumuzun kadr təminatı əsasən ADA Universitetinin yetişdirdiyi hazırlıqlı mütəxəssislər hesabına həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə indiyədək 150-dən artıq diplomata fövqəladə və səlahiyyətli səfir və elçi rütbəsi verilib. Azərbaycan xarici siyasətinin başlıca prioritetləri yarımbaşlıqlar şəklində bu bölmədə öz əksini tapıb.

Həmin fəslin "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" adlanan bölməsində münaqişənin qısa tarixi şərhi və danışıqlar prosesi barədə geniş analitik mətn yerləşdirilib. Bu bölmədə, həmçinin münaqişə barədə beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərin mətnləri öz əksini tapır.

Bu fəslin daha bir bölməsi "Xarici İşlər nazirləri" adlanır. Bölmədə Xalq Cümhuriyyəti, sovetlər dövrü və müstəqillik dövründə Xarici İşlər naziri vəzifəsində işləyən 15 şəxs haqqında geniş bioqrafik məlumat verilir.

Elektron resursun "Sənədlər" adlanan bölməsində isə cümhuriyyət dövründən etibarən Azərbaycan diplomatiyası barədə mühüm sənədlərin mətnləri öz əksini tapır.

"Diplomatik əlaqələr" adlanan üçüncü fəsildə Azərbaycanın diplomatik əlaqələr qurduğu dövlətlərin adları və əlaqələrin qurulması tarixi, xarici dövlətlərin Azərbaycandakı təmsilçilikləri və nümayəndəlikləri, baş konsulluqları, fəxri konsulluqları, beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəlikləri, Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, baş konsulluqları, fəxri konsulluqları və beynəlxalq təşkilatlar yanında daimi nümayəndəlikləri və onların ünvanları haqqında məlumatlar cədvəllər şəklində yerləşdirilib.

Elektron resursun "Konvensiyalar" adlanan fəslində Azərbaycan Respublikasının daxili və xarici siyasətinin əsas istiqamətlərinə, beynəlxalq münasibətlərin ayrı-ayrı sahələrinə, mülki və siyasi hüquqlara, insan hüquqlarının və əsas azadlıqların müdafiəsinə, soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılmasına dair, transmilli mütəşəkkil cinayətkarlığa qarşı və s. imzalanmış 300-ə yaxın konvensiyanın tam mətni öz əksini tapır.

Resursun digər fəsli "E-Resurslar" adlanır. "E-kitablar" bölməsində Azərbaycanın xarici siyasətinə və diplomatiyasına, beynəlxalq təşkilatlarla münasibətlərinə, qloballaşmaya dair, həmçinin görkəmli azərbaycanlı diplomatlar haqqında Azərbaycan və rus dillərində olan 150-yə yaxın kitabın elektron versiyaları təqdim edilir. "E-Məqalələr" bölməsində isə qəzet və jurnallarda dərc edilən Azərbaycan dilində 550-yə yaxın məqalənin elektron versiyalarının mətnləri öz əksini tapır.

Elektron resursun "Biblioqrafiya" adlanan sonuncu fəslində Prezident Kitabxanasının fondunda olan xarici siyasət, beynəlxalq münasibətlər və diplomatiyaya dair 650-yə yaxın kitabın, 15 minə yaxın məqalənin və 375 avtoreferatın biblioqrafiyası toplanılıb.

Toplanılan materialların təhlili göstərir ki, 1993-cü ilin iyun ayından 2019-cu ilin iyun ayınadək 26 il ərzində xarici siyasətlə bağlı Azərbaycan Respublikasının 1365 qanunu, Azərbaycan Respublikası Prezidentinin 443 fərmanı və 2413 sərəncamı imzalanıb.

Prezident Kitabxanasının digər elektron resurslarında da xarici siyasət fəaliyyətinə və diplomatiyaya dair zəngin material toplanıb. Ümummilli lider Heydər Əliyevin 1993-2003-cü illəri əhatə edən xarici siyasət fəaliyyətinə dair materiallar *http://heydaraliyev.preslib.az* elektron sənədlər toplusunda, Prezident İlham Əliyevin 2003-2019-cu illəri əhatə edən xarici siyasət fəaliyyətinə dair materiallar *http://foreignpol.preslib.az* elektron nəşrində, Azərbaycanın UNESKO ilə əlaqələri, xüsusilə Birinci vitse-prezident Mehriban Əliyevanın bu sahədəki fəaliyyəti haqqında materiallar *http://mehribanaliyeva.preslib.az* və http://unesco.preslib.az elektron resurslarında, İslam ölkələri ilə diplomatik əlaqələr haqqında materiallar isə Kitabxananın *http://islamworld.preslib.az* elektron resursunda əks etdirilir. Müasir Azərbaycan diplomatiyasının ən önəmli istiqaməti olan Dağlıq Qarabağ münaqişəsi haqqında Prezident Kitabxanasının "Odlar yurdu Azərbaycan" ensiklopedik elektron nəşrinin "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" fəslində *(http://files.preslib.az/-proyects/azerbaiyan/gl8.pdf)* zəngin material toplanılıb.

Kitabxananın direktoru istifadəçilərə təqdim edilən elektron resursun maarifçilik xarakteri daşıdığını, xüsusən Azərbaycanın xarici siyasəti və diplomatiya tarixi sahəsində tədqiqat aparan şəxslər və KİV-lər üçün zəngin informasiya mənbəyi olduğunu vurğulayıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tədbirdə çıxış edərək təqdim edilən elektron resursun əhəmiyyətindən danışıb. O, Azərbaycan diplomatiyasının 100 illiyi ilə bağlı tədbirlər silsiləsinin məhz kitabxanadan başlanmasının əlamətdar hal olduğunu vurğulayıb. Bildirib ki, xarici siyasət və diplomatik fəaliyyətlər intellektual xarakter daşıyır. Buna görə də bu sahələrdə daim yeni resurslara, vacib sənədlərə, ədəbiyyata müraciət etmək lazımdır. Bu baxımdan da təqdim edilən bu resursda xarici siyasətimizin fəaliyyətinin bir sıra aspektlərini, ən vacib istiqamətlərini əhatə edən virtual müqavilə-hüquq bazası, ikitərəfli əlaqələrimizin dinamikası, dövlət başçısının bilavasitə fəaliyyəti, çıxışları, nitqləri, imzaladığı sərəncamlar, o cümlədən xarici siyasət fəaliyyəti üzrə müxtəlif araşdırma materialları cəmlənib.

Hikmət Hacıyev qeyd edib ki, bu elektron resurs Azərbaycanın xarici ölkələrdəki səfirlərinin fəaliyyəti üçün də çox vacib resursdur: "Bu resursun Prezident Kitabxanası ilə əməkdaşlıq şəraitində xarici ölkələrdəki digər kitabxanalara da çıxarılması Azərbaycanın xarici siyasət reallıqlarının həmin ölkələrdə təbliğ edilməsi nöqteyi-nəzərindən çox vacibdir. Diplomatiya hər bir dövlətin müstəqilliyinin vacib amillərindən biridir. Azərbaycan Respublikasının və xalqımızın zəngin dövlətçilik ənənələri olsa da, ölkəmiz xarici işğallara və müxtəlif təcavüzlərə məruz qaldığı üçün 200 ildən artıq bir dövr ərzində müstəqil xarici siyasət fəaliyyətindən məhrum olub. Ona görə də diplomatiya tariximizin məhz bu cür sənədlər əsasında müəyyən bir dövr ərzində formalaşmasında boşluqlar olub. Ölkəmizin müstəqilliyini bərpa etməsindən sonra, xüsusən də ulu öndər Heydər Əliyevin xalqın israrlı tələbi ilə hakimiyyətə qayıdışından sonra hər bir sahədə olduğu kimi, xarici siyasət fəaliyyətində də fundamental dönüş olub. Xarici siyasətimizin strateji əsasları və təməl prinsipləri də məhz bu dövrdən qoyulub və formalaşıb. Ona görə də bu resursda ulu öndər Heydər Əliyevin fəaliyyətinin, xarici siyasət addımlarının və Azərbaycan Respublikasının müstəqilliyinin ilk və ən çətin illərində beynəlxalq aləmə inteqrasiyasını özündə əks etdirən materiallar, çıxışlar və digər sənədlər cəmləşib ki, bu da gələcək nəsil üçün vacib resursdur".

Prezident Administrasiyasının rəsmisi bildirib ki, Azərbaycanın xarici ölkələrdə diplomatik nümayəndəliklərinin sayı artmaqdadır. Bu da xarici siyasətimizin coğrafiyasının genişlənməsinin bariz nümunəsidir. Bu gün Azərbaycan diplomatiyası dövlət başçısı tərəfindən verilən tapşırıqları qətiyyətlə, əzmlə, sədaqətlə yerinə yetirir. Diplomatlarımız ictimai-siyasi vəziyyəti ağır olan ölkələrdə ölkəmizi layiqincə təmsil edirlər. Sevindirici haldır ki, onların sırasında gənclərin, qadınların sayı artır.

Sonra Xarici İşlər nazirinin müavini Ramiz Həsənov, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev, Prezident Administrasiyasının məsul əməkdaşı Gülşən Paşayeva, Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə, ölkəmizin Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev, Bakı Dövlət Universitetinin müəllimi Fazil Zeynalov çıxış edərək elektron resursun əhəmiyyətindən danışıb, onun daha da təkmilləşdirilməsi ilə bağlı təkliflərini səsləndiriblər.

# ADA Universitetinin Məzun Forumu öz işinə başlayıb





İyulun 5-də ADA Universitetində "PWC Azerbaijan" şirkətinin dəstəyi ilə ADA Universitetinin Məzun Forumu öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, tədbiri açan Xarici İşlər nazirinin müavini, ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev forumun davamlı maarifləndirmə, innovativ yanaşma, şəbəkələşmə və yeni əməkdaşlıq üçün platforma yaratmaq məqsədilə keçirildiyini bildirib. Qeyd edib ki, ingilis dilində təhsil verən dövlət ali təhsil müəssisəsi olan ADA Universiteti təsis ediləndən bəri bakalavr və magistr proqramları üzrə 1300 nəfərdən çox məzun buraxıb. Onlardan 44-ü müxtəlif ölkələri təmsil edib. ADA Universitetinin məzunları hazırda ən mötəbər təşkilatlarda yüksək vəzifələrdə çalışır və dövlətimizi layiqincə təmsil edirlər. Sevindirici haldır ki, biz bu məzunları ADA-da keçirilən ilk forumda bir araya gətirə bildik. Həmçinin məzunlarımızın müxtəlif dövlət qurumlarımızda təmsil olunmasını görmək bizim üçün çox xoşdur.

"PWC Azerbaijan" şirkətinin partnyoru Fəxri Mustafayev çıxışında təhsil müəssisələri ilə biznes qurumları arasında güclü tərəfdaşlıq qurulmasının əhəmiyyətindən danışıb. O, ADA Universiteti ilə "PWC Azerbaijan" şirkəti arasında uğurlu partnyorluq münasibətləri olduğunu bildirib. Sonra forumun əsas mövzusu üzrə tanınmış alim, ADA Universiteti rektorunun müşaviri, akademik Roald Saqdeyev çıxış edib. O, təqdimatında rəqəmsal texnologiyanın keçdiyi inkişaf yolu və onların universitet həyatına, müəllim və tələbələrə necə təsir edəcəyi barədə danışıb. Həmçinin müasir dövrdə süni intellekt texnologiyasının, robotların, virtual reallıq texnologiyalarının insanların işgüzar və sosial həyatına gələcəkdə mümkün təsirlərini qeyd edib. Akademik Roald Saqdeyev süni intellekt texnologiyasının daha geniş tətbiq olunduğunu, bu sahədən hətta ölkələrin beynəlxalq münasibətlərinin proqnozlaşdırılmasında, hərbi strategiyalarının hazırlanmasında istifadə olunduğunu bildirib.

Forum işini panel iclaslarla davam etdirib.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən iclasda "Qlobal idarəetmə" mövzusu müzakirə olunub. İclasda çıxış edən Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynov bildirib ki, müasir dövrdə texnologiyanın sürətlə inkişaf etməsi qlobal idarəetməyə də öz təsirini göstərir. Yeni ixtiralar, müasir texnoloji kəşflər tənzimləyici mexanizmlərin yaradılmasını labüd edir. Ən müasir texnologiyalara sərmayə yatıran böyük şirkətlər rəqabətə daha davamlı olur, kiçik şirkətlər isə bu rəqabətə davam gətirməyərək tədricən iflasa uğrayır. Ona görə də hökumətlər tarazlığın pozulmasını aradan qaldırmaq üçün idarəetmədə yeni mexanizmlər yaratmalıdırlar.

Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov qeyd edib ki, texnologiyanın inkişafı nəticəsində robotlar gələcəkdə insan əməyinin tətbiq olunduğu işlərin böyük hissəsini yerinə yetirəcək. Bu da bəzi peşələrin ləğv olunmasına və işsizliyin artmasına gətirib çıxaracaq. Buna görə də hökumətin üzərinə böyük məsuliyyət düşür. Dördüncü sənaye inqilabı insanların yeni texnologiyalarla ayaqlaşması, bu sahədə biliklərinin daha da təkmilləşməsi üçün ömürboyu öyrənmək prinsipinin əhəmiyyətini qabarıq göstərir.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai qlobal idarəetmənin əhəmiyyətindən və təmsil etdiyi təşkilatın bu sahədəki rolundan danışıb. BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında yüksək texnologiyaların rolunu vurğulayan diplomat bu sahədə təşkilatların birgə əməkdaşlığının vacibliyini qeyd edib.

Forum çərçivəsində müasir dövrdə rəqəmsallaşma, diplomatiya, insan kapitalının inkişafı və s. mövzular müzakirə olunub.

Bu gün öz işini davam etdirəcək forum çərçivəsində ADA Universiteti Məzunları Assosiasiyası yaradılacaq.

# Bakı Ali Neft Məktəbinin "Məzun günü" keçirilib

İyulun 4-də Bakı Ali Neft Məktəbində (BANM) növbəti "Məzun günü" keçirilib. Üçüncü dəfə keçirilən "Məzun günü"ndə SOCAR nümayəndələri, BANM-ın rektoru Elmar Qasımov, BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz, ali məktəbin professor-müəllim heyəti, ölkəmizdə fəaliyyət göstərən digər ali məktəblərin rektorları, transmilli şirkətlərin rəhbər və təmsilçiləri, Böyük Britaniyanın Heriot-Vatt Universitetinin nümayəndələri, məzunlar, onların valideynləri və qonaqlar iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan BANM-ın rektoru Elmar Qasımov məzunları və onların yaxınlarını bu əlamətdar gün münasibətilə təbrik edərək məzunlara gələcək karyera və həyatlarında uğurlar arzulayıb. "Azərbaycanın ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında yüksək bal toplayaraq Bakı Ali Neft Məktəbinin tələbəsi adını qazanmış intellektual gənclərin Bakı Ali Neft Məktəbinin məzunu olmaları bizim üçün qürurverici və mühüm hadisədir. Bakı Ali Neft Məktəbində təhsil aldıqları müddətdə daim nizam-intizamları ilə seçilmiş, təhsil həyatlarında böyük uğurlar qazanmış məzunlarımız bu gün bakalavriat və magistratura təhsili dövrünü tamamlayır, eyni zamanda həyatda növbəti karyera və təhsil addımlarının təməlini qoyurlar. Bütün məzunlarımıza müvəffəqiyyətlər, gələcək karyera və həyatlarında uğurlar arzulayıram", - deyə rektor Elmar Qasımov qeyd edib.



Tədbir zamanı vurğulanıb ki, BANM-ın builki məzunlarının artıq 80 faizi yerli və transmilli şirkətlərə işə qəbul olunub, eləcə də beynəlxalq universitetlərdə tam təqaüdlə təhsil əldə ediblər. Bu gün BANM məzunları SOCAR, Star, Petkim, BP, Halliburton, Schumberger, Maire Tecnimont və s. kimi nüfuzlu müəssisələrdə çalışırlar.

SOCAR-ın kadr, rejim və informasiya texnologiyaları üzrə vitse-prezidenti Xalik Məmmədov isə çıxışında deyib: "2011-ci ildə Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyev SOCAR-ın qarşısında yüksək texnoloji biliklərə sahib olan, ingilisdilli neftçi mütəxəssislər hazırlayacaq və müasir təhsil standartlarına cavab verən yeni bir ali məktəb yaratmaq vəzifəsi qoydu. Bu məsələ o dövrdə SOCAR üçün olduqca aktual idi. Orta məktəb şagirdləri ilə görülmüş məqsədyönlü işlər və xüsusilə Bakı Ali Neft Məktəbinin fəaliyyətə başlaması vəziyyəti tamamilə dəyişdi. Təhsilin yüksək keyfiyyəti, yeni, müasir tədris proqramlarına uyğun təşkili qəbul imtahanlarında ən yuxarı bal toplayan abituriyentləri məhz bu ali məktəbi seçməyə həvəsləndirir. Ötən il birinci qrup üzrə 700 bal toplamış gənclərin hamısı BANM-ı seçmişdir. Bu, çox yüksək nəticədir".

BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz isə BANM-ın nəinki Azərbaycan, eləcə də region üçün peşəkar mütəxəssislər yetişdirdiyini qeyd edib. O, BP-də çalışan BANM məzunlarının peşəkarlığından razılığını ifadə edib.

Tədbirdə Heriot Vatt Universitetinin müəllimlərinin, eləcə də, BANM-ın ötənilki məzunlarının dünyanın müxtəlif universitetlərindən və transmilli şirkətlərdən builki məzunlara göndərdiyi təbrik videosu nümayiş olunub.

"Məzun günü" diplomların təqdim olunma mərasimi ilə davam edib. 2018/2019-cu tədris ilində ali məktəbin "Neft-qaz mühəndisliyi" (46 nəfər), "Kimya mühəndisliyi" (48 nəfər), "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" (16 nəfər) ixtisasları üzrə ümumilikdə 110 bakalavr məzunu BANM-ın diplomlarını alıblar. Onlardan 40 nəfər, eyni zamanda Heriot Vatt Universitetinin diplomunu əldə edib.

Bu il BANM ilk magistr buraxılışını həyata keçirib. 13 nəfər magistr məzunlarının hər biri Bakı Ali Neft Məktəbi ilə yanaşı, Heriot Vatt Universitetinin də diplomuna yiyələnib. 2018/2019-cu tədris ilində ali məktəbi fərqlənmə ilə bitirən 6 tələbənin diplomu təqdim edilib.

2019-cu il məzun buraxılışında Ali Məktəb üzrə birinci olan Rəmziyyə Qarazadənin adı simvolik kötüyə həkk olunub.

Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasının tələbəsi Əmiraslan Baxşılı məzun dostları adından çıxış edərək onların gənc mütəxəssis kimi yetişmələrində, bilik və bacarıqlarının artırılmasında böyük əməyi olan müəllimlərə minnətdarlıqlarını bildirib.

Valideynlər adından çıxış edən məzun Eltun İbrahimovun anası Natella İbrahimova yaradılan şəraitə görə Azərbaycan Respublikasının Prezidentinə təşəkkürünü bildirib. "Biz Ağdam rayonundan məcburi köçkün düşmüşük. Oğlum Eltun İbrahimov 700 bal toplayaraq Prezident təqaüdü ilə Bakı Ali Neft Məktəbinə daxil olub. Təhsilini uğurla başa vuran oğlum hazırda Köln Universitetində Almaniya hökumətinin təqaüdü ilə təhsilini davam etdirir və sevindirici haldır ki, eyni zamanda da SOCAR-dan iş təklifi alıb", - deyə Natella İbrahimova qeyd edib.

"Məzun günü"nün bədii hissəsində İnformasiya təhlükəsizliyi ixtisasının 1-ci kurs tələbəsi Xəyal Fərzəliyev Məmməd Arazın "Atamın kitabı" poemasından nümunələr, Kimya mühəndisliyi ixtisasının 2019-cu il məzunu Tofiq Şəkinski Yirumanın "River flows in you" kompozisiyasını, Şotland qonaq İnnes Moir volınka alətində Şotland milli musiqisini ifa ediblər. Bədii hissə Çingiz Mustafayevin rəhbərlik etdiyi "Palmas" qrupunun konserti ilə davam edib.

"Məzun günü"nün sonunda mantiya geyinmiş məzunların ənənəvi "papaq atma" mərasimi keçirilib.

***"Azərbaycan"***

# Azərbaycan-Peru münasibətlərinin inkişafı məsələləri müzakirə olunub

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Peruya işgüzar səfəri çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Elmar Məmmədyarovun Perunun Xarici İşlər naziri Nestor Popolizio Bardales ilə görüşündə Azərbaycan-Peru münasibətlərinin inkişafı, regional məsələlər və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Elmar Məmmədyarov Azərbaycanın Sakit okean Alyansına (SOA) müşahidəçi üzv qəbul edilməsinə verdiyi dəstəyə görə həmkarına təşəkkürünü bildirib. O, ölkəmizin Alyans ilə əməkdaşlıqda maraqlı olduğunu deyib və təşkilat çərçivəsində yaradılmış imkanlardan yararlanaraq SOA-nın Asiya ölkələri ilə ticarət əməkdaşlığında fəal iştirak imkanlarının olduğunu diqqətə çatdırıb.

Görüş zamanı, həmçinin Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik müddətində SOA çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

# Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

*AZƏRTAC*

# Bakıda ABŞ-ın Müstəqillik Günü qeyd edilib





İyulun 5-də ABŞ-ın Azərbaycandakı səfirliyi ölkəsinin müstəqilliyinin elan olunmasının 243-cü ildönümü ilə əlaqədar tədbir təşkil edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və ABŞ-ın Dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqer deyib ki, beynəlxalq arenada Azərbaycanın rolu artmaqda davam edir. ABŞ Azərbaycanın müstəqilliyinə hörmət edir və dəyərləndirir. "Azərbaycanı dəstəkləməyə davam edəcəyik. Ümid edirəm ki, hər iki ölkə dost və tərəfdaş kimi azadlıq və firavanlıq yolunda birgə addımlamağa davam edəcək", - deyə diplomat əlavə edib. Səfir qeyd edib ki, Azərbaycan ilə ABŞ arasında güclü tərəfdaşlıq və əməkdaşlıq mövcuddur.

Maliyyə naziri Samir Şərifov tədbirdə çıxış edərək ABŞ xalqını və hökumətini Azərbaycan hökuməti adından təbrik edib. Nazir qeyd edib ki, ABŞ ilə Azərbaycan arasında güclü iqtisadi maraqlar mövcuddur və sosial-iqtisadi dialoqun genişlənməsi əlaqələrin inkişafına töhfə verir. ABŞ "Cənub qaz dəhlizi" də daxil olmaqla Azərbaycanın iştirakı ilə həyata keçirilən beynəlxalq enerji layihələrinə dəstək verir. Son zamanlar qarşılıqlı səfərlərin intensivliyinin artması əlaqələrimizin yüksələn xətt üzrə inkişafının göstəricisidir. "Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllində ATƏT-in Minsk qrupunun sədri kimi ABŞ-ın səylərinə ümid bəsləyirik", - deyə S.Şərifov qeyd edib.

# Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası nominasiyaların təqdimatı ilə davam edib

## Səkkiz ölkənin nominasiyası Dünya İrs Siyahısına salınıb



Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası iyulun 5-də öz işini nominasiyaların təqdimatı ilə davam etdirib.

AZƏRTAC xəbər verir ki, tədbiri açan sessiyanın təşkilat komitəsinin sədri, Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev müzakirə olunacaq və qəbul ediləcək nominasiyalarla bağlı məlumat verib. Bildirib ki, büronun qərarı ilə Avstraliya ilə Bəhreynin nominasiyalarının müzakirəsi iyulun 6-na keçirilib.

Sonra Avstraliya, İspaniya, Norveç, Tunis, Finlandiya, Danimarka, İsveç, Andorra, İsveçrə və digər ölkələrin nümayəndələri çıxış edərək 43-cü sessiyanın işini yüksək səviyyədə təşkil etdiyinə görə Azərbaycan hökumətinə minnətdarlıqlarını bildiriblər.

Dünya irsinin hamıya məxsus olduğunu söyləyən natiqlər qeyd ediblər ki, bu gün Bakı sessiyasında UNESKO-nun Dünya İrsi Siyahısına daxil edilmək üçün üzv dövlətlər tərəfindən təqdim olunmuş 35 namizəd fayl nəzərdən keçiriləcək. Namizədliyi irəli sürülmüş faylların 27-si mədəni, 6-sı təbiət, 2-si qarışıq (təbiət və mədəni) abidələr sırasına daxildir. Bu nominasiyalardan 15-i Avropaya, 1-i isə Afrika qitəsinə aiddir.

Çıxışlarda vurğulanıb ki, obyektiv və elmi cəhətdən əsaslandırılmış qərarlar qəbul edilməlidir.

Çıxışlarda mövcud münaqişələrin milli irsə dağıdıcı təsirinin nəzərə alınması, dünya mədəni irsinin tarazlığının qorunması istiqamətində ciddi işlər görülməsinin vacibliyi və digər fikirlər səsləndirilib.

Təqdim olunan nominasiyaların bir çoxunda səhvlər tapıldığı üçün onlar müzakirədən çıxarılıb.

Müzakirələrdən sonra təqdim olunan nominasiyaların UNESKO-nun Dünya İrsi Siyahısına qəbul olunması prosesinə başlanılacaq. İlk olaraq təbiət, sonra qarışıq, ən sonda isə mədəni nominasiyalar siyahıya salınacaq.

İlk olaraq Çinin təqdim etdiyi nominasiya - Sarı dənizin sahilində Bohai boğazında, miqrasiya edən köçəri quşların təbii sahəsinin Dünya İrsi Siyahısına salınması məsələsinə baxılıb. Bu nominasiyanı 18 ölkə dəstəkləyib. Beləliklə, Çin və Koreya yarımadası arasında yerləşən bu dəniz sahilində miqrasiya edən köçəri quşların təbii sahəsi Dünya İrs Siyahısına salınıb. Bu, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü Bakı sessiyasında Dünya İrs Siyahısına salınan ilk nominasiyadır.

Sonra İran İslam Respublikasının təqdim etdiyi Hirkan meşələri ilə bağlı nominasiya müzakirə olunub. İran tərəfinin təqdim etdiyi bu fayl Dünya İrs Siyahısına daxil edilib. Qeyd olunub ki, yaxın gələcəkdə Azərbaycan da bu nominasiyaya qoşulacaq.

Günün müzakirə edilən növbəti nominasiyası Tailandın irəli sürdüyü Ken Kraçan Milli Parkı ilə bağlı fayl olub. Gərgin keçən müzakirələrdə bu faylla bağlı iradlar bildirilib və üzv ölkələrin nümayəndələrindən ibarət işçi qrup yaradılıb.

Günün ikinci yarısında sessiya işini Fransanın Austral əraziləri və dənizləri ilə bağlı nominasiyanın müzakirəsi ilə davam etdirib.

İclasda Norveç, Avstraliya, Tunis, Uqanda və digər ölkələrin nümayəndələri hazırlanmış faylı yüksək qiymətləndiriblər. Səsvermədən sonra Fransanın təqdim etdiyi nominasiya UNESKO-nun Dünya İrs Siyahısına daxil edilib.

İslandiyanın Vatnajökull Milli Parkı ilə bağlı hazırladığı fayl da maraqla qarşılanıb. Nominasiya iştirakçı ölkələr tərəfindən yüksək qiymətləndirilib və İslandiyanın təqdim etdiyi fayl UNESKO-nun siyahısına salınıb.

Təbii sahələr başa çatdıqdan sonra qarışıq sahələr üzrə nominasiyalar nəzərdən keçirilib.

Albaniyanın hazırladığı Oxrid gölü və gölün ətrafındakı ərazilər qarışıq nominasiya kimi UNESKO-nun siyahısına daxil edilib.

Sonra Braziliyadakı Parati mədəniyyəti və biomüxtəlifliyi ilə bağlı nominasiyaya baxılıb. Qərar layihəsi UNESKO-nun siyahısına daxil edilib.

Bununla da nəzərdə tutulmuş hər iki qarışıq nominasiya siyahıda yer alıb.

Daha sonra üzv dövlətlərin iştirakı ilə mədəni nominasiyaların müzakirəsinə başlanılıb.

Əvvəlcə Burkina-Fasonun qədim polad metallurgiyası ilə bağlı nominasiya nəzərdən keçirilib. Bildirilib ki, Afrikanın bu hissəsində əsrlərboyu yaradılmış qədim sənətkarlıq nümunələri bu gün də öz dəyərini qoruyub saxlayır. Bu ərazilərdə yaşayan sənətkarların XIV-XV əsrlərdə istifadə etdikləri metaləritmə sobaları müasir dünyamızda da maraqla qarşılanır. Müzakirələrdən sonra Burkina-Fasonun təqdim etdiyi nominasiya UNESKO-nun Dünya İrs Siyahısına daxil edilib.

Sonra sessiya iştirakçıları İraqın təqdim etdiyi Babillə bağlı faylı müzakirə ediblər. Nominasiya bir sıra dəyişikliklər edilməklə üzv dövlətlər tərəfindən yekdilliklə qəbul edilib.

Sessiya işini bu gün digər nominasiyaların müzakirəsi və qəbulu ilə davam etdirəcək.

# Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində növbəti panel iclaslar təşkil edilib



İyulun 5-də Bakı Konqres Mərkəzində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində növbəti panel iclaslar təşkil edilib.

AZƏRTAC xəbər verir ki, ilk iclas Afrikada gənclər, innovasiya və davamlılıq mövzusuna həsr olunub. İclasda çıxış edən UNESKO-nun Baş direktorunun müavini Ernesto Ottone Ramirez Afrika qitəsində yüksək demoqrafik inkişafın müşahidə edildiyini, 600-dək mühafizə zonasının olduğunu bildirib, gənclərin qitənin gələcək inkişafında böyük rol oynayacaqlarını vurğulayıb.

Keniyadan və Kamerundan olan gənclər - Njeri Mbure və Benis Nchang qitədə gənclərin maariflənməsi, onların mədəni irsin qorunması sahəsində təcrübələrinin artırılması, müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə bacarıqlarının inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən proqramlar və layihələr barədə məlumat veriblər.

Çin Xalq Respublikası və Böyük Britaniya tərəfindən təşkil olunan növbəti panel iclasda Böyük Çin Səddi və Hadrian divarının mühafizəsi sahəsində təcrübə mübadiləsi aparılıb. Çıxışçılar hər iki mədəni irs nümunəsinin mühafizəsi və idarə edilməsi sahəsində öz ölkələri tərəfindən görülən işlər barədə danışıblar.

"Ümumdünya İrs Komitəsi və mədəniyyətlərin uzlaşması" mövzusunda panel iclasda dünya irsi vasitəsilə mədəniyyətlərin uzlaşmasında UNESKO-nun rolundan söhbət açılıb. Beynəlxalq Sarayevo Universitetinin professoru Amra Mostar Sarayevo şəhərində yerləşən "Stari Most" tarixi-memarlıq abidəsinin təmir-bərpası ilə bağlı layihənin təqdimatı ilə çıxış edib.

Növbəti plenar iclasın mövzusu UNESKO Ümumdünya İrs mərkəzləri və institutlarının fəaliyyətlərinə həsr olunub. İclasda təşkilatın "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyasının səmərəli icrası ilə əlaqədar irs mərkəzləri və institutların rolu barədə fikir mübadiləsi aparılıb.

Plenar iclaslar müzakirələrlə davam edib.

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının II Məclisi keçirilib



İyulun 5-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) II Məclisi keçirilib.

AZƏRTAC xəbər verir ki, AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev gündəlikdə duran məsələlər barədə tədbir iştirakçılarına məlumat verib və "Müasir dövrdə həmkarlar ittifaqına yeni üzvlərin cəlb edilməsində motivasiyanın rolu, beynəlxalq təcrübə və Azərbaycan həmkarlar ittifaqlarının vəzifələri" mövzusunda məruzə ilə çıxış edib.

Səttar Möhbalıyev qeyd edib ki, müzakirə edilən məsələ həmkarlar ittifaqları üçün mühüm əhəmiyyət daşıyır. "Bu mövzu ətrafında dəfələrlə müzakirələr aparmış, müəyyən nəticələrə də nail olmuşuq. Lakin etiraf edək ki, bu sahədə hələ həllini tapmayan problemlər də qalmaqdadır. Bu gün bu problemlər, onların həlli yolları araşdırılacaq. Əldə edəcəyimiz nəticələr sözsüz ki, gələcək fəaliyyətimizə töhfələrini verəcək".

AHİK sədri qeyd edib ki, həmkarlar ittifaqı üzvlüyünə motivasiya dedikdə əmək kollektivlərində həmkarlar ittifaqı təşkilatının nüfuz və təsirini artıran, onun strukturlarını gücləndirən, həmkarlar ittifaqı sıralarının genişləndirilməsinə təsir göstərən kompleks tədbirlər, forma və iş metodları sistemi nəzərdə tutulur.

S.Möhbalıyev qeyd edib ki, AHİK-in Əmək və Sosial Münasibətlər Akademiyası motivasiya işinin təşkili ilə bağlı sorğu keçirib. Respondentlər "İşçilərin həmkarlar ittifaqına cəlb olunması üçün nə etmək lazımdır" sualına birmənalı yanaşmayıblar. Rəyi soruşulanlardan 50 faizi "onlarla ünsiyyət qurmaq", 21,4 faizi "tələbatlarını öyrənmək", 25 faizi isə "hüquqlarını müdafiə etmək" cavablarını veriblər. Daha maraqlısı odur ki, "Gənclərin həmkarlar ittifaqı hərəkatına cəlb olunmasına mane olan nədir?" sorğusuna qatılanların 40 faizə yaxını məlumatsızlığı səbəb göstərib.

Bu səbəbi aradan qaldırmaq məqsədilə Azərbaycan həmkarlar ittifaqları liderləri əmək kollektivlərində görüşlər keçirib, kütləvi informasiya vasitələrində, o cümlədən radio, televiziya kanallarına vaxtaşırı müsahibələr verib, qəzet səhifələrində, internet saytlarında yazıları dərc edilib.

Diqqətə çatdırılıb ki, AHİK-in İcraiyyə Komitəsinin 6 oktyabr 2008-ci il tarixli qərarına əsasən, "Həmkarlar ittifaqı təşkilatına üzvlüyün motivasiyası və təşkilati birliyin möhkəmləndirilməsi üzrə nümunəvi proqram" təsdiq edilib. Proqramın əsas məqsədi yeni üzvlərin cəlb edilməsi yolu ilə şəhər, rayon, ərazi təşkilatlarının əhəmiyyətinin və nüfuzunun yüksəldilməsi, həmkarlar ittifaqlarının təşkilati cəhətdən möhkəmləndirilməsidir.

Həmkarlar ittifaqına üzvlüyün motivasiyasını artırmaq üçün üzvlərimizin sağlamlığının, istirahətinin təşkili ilə əlaqədar üzərimizə mühüm vəzifələr düşür. Müraciət edən hər bir işçi güzəştli şərtlərlə yollayışlarla təmin edilməlidir. Sanatoriya, kurort və istirahət ocaqlarının illüstrasiyalı broşürləri idarə və təşkilatlara paylanmalı, güzəştli şərtlər izah olunmalı və gediləcək yerlər televiziya kanalları, kütləvi informasiya vasitələri ilə geniş reklam olunmalıdır. Ümid edirəm ki, belə təcrübə müsbət nəticə verəcəkdir.

Bilavasitə AHİK tərəfindən aparılmış müsbət işlərin nəticəsində Fövqəladə Hallar Nazirliyində, Dövlət Gömrük Komitəsində həmkarlar ittifaqı təşkilatları təsis edilmiş və bu gün uğurla fəaliyyət göstərirlər.

AHİK sədri daha sonra deyib: "Azərbaycan həmkarlar ittifaqlarının qanunvericilik bazası çox möhkəmdir. Biz ölkədə sosialyönümlü qanun və proqramların, normativ sənədlərin işlənib hazırlanmasında fəal iştirak edirik. AHİK tərəfindən irəli sürülən təkliflərin, demək olar ki, hamısı ölkəmizin siyasi rəhbərliyi, o cümlədən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müdafiə olunur. Bunun nəticəsidir ki, bizim təklifimizlə "Həmkarlar ittifaqları haqqında" qanuna, Əmək və İnzibati Xətalar məcəllələrinə, digər normativ-hüquqi aktlara 120-dən çox önəmli əlavə və dəyişikliklər edilib. Əmək Məcəlləsinin 80-ci maddəsinə edilən dəyişiklik, həmkarlar ittifaqına üzvlüyün motivasiyası baxımından daha çox önəmlidir".

Diqqətə çatdırılıb ki, BƏT-in bir sıra konvensiyası, o cümlədən təşkilatlanma hüququ ilə bağlı 87 saylı və kollektiv danışıqların aparılması ilə bağlı 98 saylı konvensiyaları da həmkarlar ittifaqlarının fəaliyyətinin hüquqi təminatı üçün əsas sənədlərdəndir. Bunlar həmkarlar ittifaqı üzvlüyünə motivasiya baxımından bizim üçün böyük əhəmiyyət daşıyır.

"Vaxtaşırı həmkarlar ittifaqlarının regionlardan olan liderləri ilə keçirdiyimiz görüşlərdə yerli icra hakimiyyəti orqanlarının onların işinə əsassız müdaxilə etmələri barədə narazılıqları ilə qarşılaşırdıq. 8 fevral 2012-ci il, 11 iyul 2015-ci il və 10 iyul 2018-ci ildə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev tərəfindən Azərbaycan Respublikasının şəhər və icra hakimiyyəti başçılarına məktub ünvanlanmışdı. Məktublarda şəhər, rayon icra hakimiyyəti başçılarına mübahisəli məsələləri "Həmkarlar ittifaqları haqqında" qanunun müddəalarına uyğun və AHİK-in razılığı ilə həll etmək tövsiyə olunur. Bu məktublar, ilk növbədə, həmkarlar ittifaqlarının mövqeyinin möhkəmləndirilməsi və həmkarlar ittifaqına üzvlüyün motivasiyası baxımından dəyərlidir. Həmkarlar ittifaqlarının bütün vəsilələrinin rəhbərləri bu sənədlərdən maksimum faydalanmalıdırlar".

AHİK sədri deyib ki, respublikamızda əhəmiyyətli sosial-iqtisadi dəyişikliklər baş verir, əhalinin rifahının yaxşılaşdırılmasına istiqamətləndirilən genişmiqyaslı islahatlar həyata keçirilir. Bazar iqtisadiyyatının təşəkkül tapması, sahibkarlığın inkişafı üçün əlverişli mühitin yaradılması istiqamətində atılan önəmli addımlar, layiqli əmək şəraiti əhalinin yaşayış səviyyəsinin yüksəlməsi üçün geniş imkanlar açıb.

Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur. Azərbaycan hakimiyyətinin yürütdüyü sosial siyasət həqiqətən də inqilabi xarakter daşıyır. Bu, ilk növbədə, Prezidentin dövlətin öz vətəndaşına olan diqqət və qayğısının təzahürüdür.

II Məclisin yekununda AHİK sədrinin məruzəsi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası üzvlüyünə qəbul, Məclisinin və İcraiyyə Komitəsinin tərkibində dəyişikliklər edilməsi haqqında qərarlar qəbul olunub.

II Məclisin iclasında AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə Mahmud Qaşqari adına Beynəlxalq Fondun mükafatı və medalı təqdim edilib. AHİK sədri bu mükafata Mahmud Qaşqarinin 1000 illiyi ilə bağlı Türk Dünyasında mədəniyyətə, təhsilə, sənətə, ədəbiyyata göstərdiyi dəstəyə görə layiq görülüb.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

İyulun 5-də Təhsil naziri Ceyhun Bayramov Siyəzən şəhərindəki Heydər Əliyev Mərkəzində Xaçmaz, Siyəzən və Şabran rayon sakinlərini qəbul edib.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin iyul ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda qeyd olunan rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, qəbulda C.Bayramov vətəndaşların müraciət və təkliflərini diqqətlə dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən, müəllimlərin işə qəbulu və yerdəyişməsi, məktəb binalarının təmiri, təhsilalanların köçürülməsi və yaxud ixtisasının dəyişdirilməsi və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva Quba şəhərindəki Mədəniyyət Mərkəzində Quba və Qusar rayon sakinlərini, bu rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünləri qəbul edib.

Qəbula gələn vətəndaşların müraciətləri dinlənilib. Bir sıra müraciətlərlə bağlı konkret tapşırıqlar verilib.

* * *

İyulun 5-də Qubada Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov Quba və Qusar rayonlarından olan vətəndaşları qəbul edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda 14 nəfər iştirak edib.

Vətəndaşların müraciətləri əsasən Gənclər evlərinin fəaliyyəti, Olimpiya İdman komplekslərinin, eyni zamanda, digər idman qurğularının tikintisi və təmiri, idman avadanlığı ilə təchizat, işlə təminat, fəxri adların və məşqçilik dərəcələrinin verilməsi və sair məsələlərlə bağlı olub. Müraciətlərin bir qismi yerindəcə həllini tapıb, bəziləri baxılması üçün icraya yönəldilib. Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlərin isə qeydə alınaraq aidiyyəti üzrə göndəriləcəyi bildirilib.

# Əməkdar mühəndis, dövlət xadimi Rafiq Xələfovun 80 illiyi ilə bağlı anım mərasimi keçirilib



Əməkdar mühəndis, dövlət xadimi Rafiq Xələfovun 80 illiyi ilə bağlı iyulun 5-də Fəxri xiyabanda mərhumun məzarı önündə anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, anım mərasimində mərhumun ailə üzvləri, doğmaları və yaxınları iştirak edib, Rafiq Xələfovla bağlı xatirələrini bölüşüblər.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri, Milli Məclisin deputatı Cavid Qurbanov Əməkdar mühəndis Rafiq Xələfovun Azərbaycan avtomobil yollarının tikintisi sahəsində gördüyü işlərdən danışıb.

Cavid Qurbanov qeyd edib ki, Rafiq Xələfov 1979-cu ildə Azərbaycan avtomobil yollarının tikintisi və istismarı naziri təyin edildikdən sonra ölkənin avtomobil yollarının inşasında və bərpasında böyük işlər görülüb. Belə ki, ölkədə şose yollarının ümumi uzunluğu 23.800 kilometrdən 24.900 kilometrə çatdırıldı. Bərk örtüklü yollar 18.300 kilometrdən 23.800 kilometrədək uzadıldı. Bakı-Sumqayıt-H.Z.Tağıyev-Giləzi, Lökbatan-Qaradağ-Ələt-Astara keçid yolu, İsmayıllıdan, Sabirabaddan, Füzulidən, Tovuzdan qonşu bölgələrə uzanan, bir sözlə, ölkənin bütün yaşayış məntəqələrini biri-birinə calayan yollar salındı. Bunların hamısı magistral, birinci dərəcəli yollardır və Rafiq Xələfovun rəhbərliyi ilə inşa edilib. Cavid Qurbanov vurğulayıb ki, həmin illərdə birinci dərəcəli yolların 5, ikinci dərəcəli yolların 3,2, üçüncü dərəcəli yolların 2,3 dəfə artırılması məhz Rafiq Xələfovun və onun başçılıq etdiyi kollektivin zəhmətinin bəhrəsidir.

"Bakı Tikiş Evi" ASC-nin direktoru Fədail Rəhimov istedadlı təşkilatçı Rafiq Xələfovun Azərbaycan sənayesinin inkişafı üçün gördüyü işlərdən danışıb. O qeyd edib ki, Rafiq Xələfov 1993-cü ildən başlayaraq "Xalq üçün mallar" Dövlət Konserninin idarə heyətinin sədri vəzifəsində çalışıb. "Xalq üçün mallar" Dövlət Konserni də mürəkkəb quruluşa malik bir sahə idi. Konsern ölkə sənayesinin doqquz müxtəlif sahəsinə rəhbərliyi həyata keçirirdi.

O dövrdə iqtisadiyyat tənəzzülə uğramış, keçmiş əlaqələr qırılmış, bazar itirilmişdi. Belə çətin bir vaxtda Rafiq Xələfov istehsalatın bazar iqtisadiyyatı istiqamətində qurulması üçün bütün qüvvələri səfərbər etdi. Nəticədə "Xalq üçün mallar" Dövlət Konserni qısa müddətdə öz məhsullarını xaricə göndərməyə nail oldu. Mütəxəssislər Almaniyaya, Türkiyəyə, Çinə ezamiyyətə yollandılar, müasir texnika, xammal və materialların alınması üçün müqavilələr bağladılar. Əmək ahəngini bərpa edən müəssisələrdə minlərlə insan, o cümlədən qadınlar və qızlar işlə təmin olundular.

Digər çıxış edənlər də Rafiq Xələfov barədə xatirələrini bölüşüb, onun gördüyü işlərin əhəmiyyətini vurğulayıblar.

Sonra Rafiq Xələfovun qızları Sevinc və Fəxriyyə Xələfovalar atalarının anım mərasimində iştirak edən hər kəsə minnətdarlıqlarını bildiriblər. Onlar qeyd ediblər ki, Rafiq Xələfov dövlət xadimi kimi Azərbaycan Respublikasında böyük xidmətlər göstərib. Sevinc Xələfova bildirib ki, atası cəmi 59 il yaşamasına baxmayaraq, mühüm işlərə imza atıb. Harada çalışmasından asılı olmayaraq, özünəməxsus təşəbbüskarlıq və təşkilatçılıq, əməksevərlik və bacarıqlı rəhbər xüsusiyyətlərini nümayiş etdirib.

Rafiq Xələfov 1962-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaatçı-mühəndis ixtisasını bitirib. Ali təhsilini bitirəndən sonra müxtəlif sahələrdə çalışıb və elə ilk dövrlərdən özünü səmərələşdirici təkliflərlə çıxış edən, istehsalata yenilik gətirən istedadlı mühəndis kimi göstərib. 1962-1965-ci illərdə "Azərtəsərrüfat" Dövlət Layihə İnstitutunda iqtisadçı, iş icraçısı, baş mühəndis vəzifələrində çalışıb. Sonra "Azərdəniznefttikinti" trestinin baş mühəndisi vəzifəsinə irəli çəkilib. 1969-cu ildə Suriya Ərəb Respublikasında yeni kəşf edilmiş neft yataqlarında tikinti işlərinə rəhbərlik edib.

Fəxriyyə Xələfova qeyd edib ki, atası müstəqilliyini bərpa etmiş Azərbaycanın inkişafı üçün ümummilli lider Heydər Əliyevin tapşırıqlarına əsasən çox iş görüb. Bildirib ki, 1993-cü ildə ulu öndər Heydər Əliyev yenidən hakimiyyətə gəldikdən sonra Rafiq Xələfovu çağırıb onun qarşısında mühüm vəzifə qoydu. O, "Xalq üçün mallar" Dövlət Konserninin idarə heyətinin sədri kimi Azərbaycan Silahlı Qüvvələrinin ehtiyaclarını ödəməli idi. Acınacaqlı vəziyyətdə olan, ayaqyalın-başıaçıq ordunu geyindirmək üçün bütün daxili resursları səfərbər etmək lazım idi. "Atam bu işin öhdəsindən gəldi. İş ondadır ki, bu, real işləyən və büdcəyə sanballı gəlir gətirən azsaylı konsernlərdən biri idi. Fabriklər işləməyə başladı, özü də demək olar ki, hamısı hərbi ehtiyaclar üçün işləyirdi. O vaxtın ordusunu təsəvvürünüzə gətirin. Atam isə heç iki il keçməmiş ordunu NATO forması ilə təchiz etdi,"- deyə F.Xələfova vurğulayıb. Təsadüfi deyil ki, 1997-ci ildə "Xalq üçün mallar" Konserni fəaliyyətini bitirdikdən sonra ümummilli lider Heydər Əliyev Rafiq Xələfovu ən geniş səlahiyyətlərlə Baş nazirin müavini təyin etdi. Təəssüf ki, 1998-ci ilin oktyabrında qəfil ölüm Rafiq Xələfovun uğurlu karyerasına son qoydu. O vaxt Rafiq Xələfovun cəmi 59 yaşı vardı və bu ölüm gənc müstəqil dövlətimiz üçün həqiqətən ağır itki idi.

Əməkdar mühəndis, görkəmli dövlət xadimi Rafiq Xələfovla bağlı ailə üzvləri, doğmaları və yaxınlarının xatirələri dinlənildikdən sonra mərhumun ruhuna dualar oxunub.

Qeyd edək ki, əməyi orden və medallarla qiymətləndirilən Rafiq Xələfov iki çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilib.

Qurub-yaratmaq, tikmək, yol çəkmək, körpü salmaq Rafiq Xələfovun təkcə sənəti və vəzifəsi deyil, həm də amalı, alın yazısı, ömrünün mənası, həyatını həsr etdiyi iş idi. Bütün bunlar onun şərəfli ömür yolunun bütün mərhələlərində özünü göstərib.

Deməsək olmur

# Od tutub yanan təkcə havalar deyil

## İstilər canımıza, qiymətlər cibimizə qənim kəsilib

Həqiqətən, bu gün od tutub yanan təkcə havalar deyil. Amma bir az fərqinə vardıqda, ümumiyyətlə, havalar deyil, yaxud olmamalıdır. Çünki bir cənub ölkəsi və yay, üstəgəl bu fəsildə 35-40 dərəcə istiyə öyrəşmiş bizlər. Niyə şikayətlənməliyik ki?! Bu səbəbdən orta statistik qazanca malik kimdən soruşsaq qiymətlərlə müqayisədə havaların "toya gedəsi" olduğunu deyəcək. Niyə deməsin ki?!



Prezident İlham Əliyev dövlətin həyata keçirdiyi iqtisadi siyasətin, o cümlədən islahatların əsas hədəfinin əhalinin sosial güvənliyinin təminatı olduğunu dəfələrlə sübut etmişdir. Dövlət başçısı seçildiyi 2003-cü ildən bugünəcən elə il olmayıb ki, İlham Əliyev ölkədə büdcədən maliyyələşən təşkilatlarda çalışanların əməkhaqlarını, pensiyaları, müxtəlif təyinatlı sosial müavinətləri, təqaüdləri artırmasın, qaçqın və məcburi köçkünlərin məişət şəraitlərinin yaxşılaşdırılması üçün tədbirlər görməsin, şəhid ailələrinin, müharibə veteranı və əlillərinin qayğılarının qarşılanması üçün sərəncamlar imzalamasın.

Bu 16 illik tarixin çox dərinliklərinə baş vurmayıb 2019-cu ilə müraciət edək: məlum olduğu kimi, cari il Prezident iki sosial paket təsdiqləyib. İlin əvvəlində imzalanan sərəncamlarla ölkə üzrə minimum əməkhaqqı 180, minimum pensiya 160 manata qaldırılıb, təxminən 100 min nəfəri əhatə edən tələbə təqaüdləri, Əfqanıstan veteranlarının, əlillərin müavinətləri artırılıb. Ümumiyyətlə, ilk paket adlandırılan həmin sərəncamlar çərçivəsində büdcədən ayrılan 1,5 milyard manat hesabına 3 milyon nəfərdən çox vətəndaşımızın sosial güvənliyi daha da yaxşılaşıb. 17 sərəncamın əhatə etdiyi növbəti paketdənsə 2 milyon nəfər yararlanacaq. Həmin sərəncamlarla sentyabrın 1-dən minimum əməkhaqqı növbəti dəfə artırılaraq 250 manatdan hesablanacaq, dövlət qulluqçularının aylıq maaşları 50, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışıb diaqnostik qiymətləndirmədən keçən müəllimlərin əməkhaqları 20, hərbi və hüquq-mühafizə orqanları əməkdaşlarının, eləcə də dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda işləyən şəxslərinki 40 faiz artacaq. Oktyabrdansa minimum pensiyanın məbləği 200 manata çatdırılacaq. Nəhayət, dövlət büdcəsinə təxminən 2 milyard manata başa gələcək bu sərəncamlar hesabına əhalinin sosial müdafiəsinin güclənməsini sübut edən iki fakt: tək minimum əməkhaqqının artırılması 950 min nəfəri əhatə edəcək. Təhsil müəssisələrində çalışanlarla bağlı imzalanan sərəncamın nəticəsində isə müəllimlərin orta aylıq maaşları 600 manatdan çox olacaq.

İqtisadçılar, mütəxəssislər Prezidentin bu sərəncamlarını yüksək qiymətləndirirlər. Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli deyir ki, dövlət başçısının atdığı addımların mərkəzində ölkə vətəndaşı dayanır. Onun qənaətinə görə, dövlət başçısının bu istiqamətdə növbəti mühüm qərarlar verəcəyi də istisna deyil. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı isə bildirir ki, əməkhaqlarının əhəmiyyətli yüksəlməsi əhalinin alıcılıq qabiliyyətini artırmaqla iqtisadi aktivliyin daha da canlanmasına və beləliklə, multiplikator effekti ilə iqtisadiyyatın digər sahələrinə təsir göstərəcək.

İqtisadçılarda, eyni zamanda qiymətlər, daha dəqiq desək, bahalaşma sarıdan bir rahatsızlıq da var və bəri başdan deyək ki, bu ehtimal boş yerdən yaranmayıb. İlk dəfə deyil ki, bizdə əməkhaqlarının, pensiyaların artırılması ilə bağlı imzalanan sərəncamların, necə deyərlər, mürəkkəbi qurumamış qiymətlər bahalaşır, daha doğrusu, bahalaşdırılır. Bahalaşdırılır ona görə ki, istər əvvəlki, istərsə də artıq başlamış indiki qiymət artımının obyektiv səbəblərdən çox subyektiv maraqların təminatına xidmət edən bəhanələri var.

Əvvəl bir neçə kəlmə ilk yanaşmada obyektiv görünən, amma önləyici tədbirlər həyata keçiriləcəyi halda zərərsizləşdirilə bilən səbəblər barədə. Götürək Prezidentin builki sosial paketlərini. Deməli, əhalinin həm sosial müdafiəsinin gücləndirilməsi üçün artırılan əməkhaqları, pensiyalar və müxtəlif istiqamətli ödənişlər, həm də manatın devalvasiyası səbəbindən yaranmış problemli kreditlərin həlli üçün büdcədən ayrılan və ayrılacaq vəsaitin miqdarı 4 milyard manatdan çoxdur. Bu o deməkdir ki, bazara bir o qədər pul kütləsinin daxil olacağı gözlənir. Pul kütləsinin çoxluğunun isə qiymət artımına səbəb olma ehtimalı var, təbii ki, önləyici tədbirlər görülməyəndə. Və əgər bu gün hamı bahalaşmadan şikayətçidirsə, deməli, bizdə həmin tədbirlər ya lazımi səviyyədə, ya da ümumiyyətlə, həyata keçirilmir. Əks halda ilin-günün bu vaxtında mövsüm meyvələrinin, tərəvəzin, eləcə də digər ərzaq məhsullarının qiymətləri cibimizi yandırmazdı. Hələ qeyri-ərzaq məhsullarını, xidmət haqlarını demirik. Belə qəbul edirik ki, onlar gündəlik tələbat malları deyil və bəd ayaqda ərzaqdan fərqli olaraq, onlarsız da keçinmək mümkündür.

Əsassız bahalaşmanın başqa bir tərəfi də var ki, bu da onun dövlətin sosial siyasətinin əleyhinə işləməsidir. Təsəvvür edin, dövlət əhalinin gəlirlərinin artması, yəni güzəranının yaxşılaşması üçün tədbirlər görür, ölkənin istehlak bazarında qiymətlərə nəzarət edən gözəgörünməz qüvvələr isə əsassız bahalaş(dır)ma "siyasət"ilə xalqın cibinə girib halal pulunu əlindən alır. Əslində "gözəgörünməz" adlandırdığımız həmin "qüvvələr"in inhisarçılar olduğunu hamı bilir, tək onlara qarşı həm iqtisadi, həm də inzibati üsullarla mübarizə aparmalı olan qurumlardan savayı.

Fəaliyyət sahəsi ilə bağlı hər gün topdansatış bazar və dükanlardan (marketlərdən) alver edən tanışımız deyir ki, eyni ərzağı iki gün dalbadal eyni qiymətə aldığı vaxt çox az olur: "Qiymətlər qəpiklə də olsa, hər gün bahalaşır. Hətta elə ərzaqlar var ki, onlar bir-iki gün yoxa çıxır, daha doğrusu, çıxarılır. O saat bilirik ki, bu, qiymət qaldırmaq üçündür, özü də az yox, əməlli-başlı. Nə edə bilərik, bütün məhsulların sahibi, yəni inhisarçısı var, qiymətləri də onlar müəyyənləşdirirlər".

Başqa bir tanışımızsa kənddə yaşayır. Həyətində olmayan meyvə ağacı yoxdur. Dolanışığının bir qismi onlardan çıxır. Söyləyir ki, hər il meyvələrini qapıdan gəlib alırlar, hamısı da alverçilərdir. Ona görə də qiyməti "öldürürlər": "Bakıda qohum-əqrabamız çoxdur, bazardakı qiymətlərdən xəbərim olur. Məsələn, bu il bizim kənddən təxminən manat yarıma alınan gilasın, əriyin, alçanın paytaxtda 5 manata və hətta daha baha satıldığını eşitmişəm. Belə çıxır ki, aradakı alverçilər meyvə ağaclarının ilboyu əziyyətini, nazını çəkən kəndlidən çox qazanır, özü də təkcə bizim yox, həm də şəhərdəki alıcıların hesabına".

Düz sözə nə deyəsən. Amma bu yerdə bir məsələyə də toxunmaq istərdik. Söhbət kənd və şəhər rayonlarının bələdiyyələrindən gedir. Bu gün hansı bələdiyyə sədrini, yaxud üzvünü dindirsən, maliyyə azlığından gileylənəcək, fəaliyyətlərindəki bütün çatışmazlıqların günahını maliyyə qıtlığının boynuna qoyacaq. Halbuki axtardıqları vəsait, necə deyərlər, ağızlarının içində, gözlərinin önündədir. Götürək kənd yerlərindəki meyvələrin tədarükünü. Bu işin qazanclı olduğunu bilməyən yoxdur. Elə isə niyə kənd bələdiyyələri paytaxtın, digər iri şəhərlərin rayon bələdiyyələri ilə işbirliyi qurub bu gəlirli bazarı adına "alverçi" dediyimiz ara tədarükçülərinin əllərindən almırlar? Şəhərdəki rayon bələdiyyələri bu işbirliyinə can-başla razılaşarlar, çünki onlar da qazanacaqlar. Məhsul əldən-ələ düşüb bahalaşmayacağından qazanan həm də istehlakçılar olacaqlar.

Bu təklifi yeri gəlmişkən söylədik, ona əməl olub-olunmayacağı bizlik deyil, ən azından bələdiyyəlikdir. Hələliksə, bu cür təşəbbüslər olmadığı üçün hamı gileylidir - bahalıqdan, o üzdən pulun bərəkətsizliyindən, dəyərini aybaay yox, günbəgün itirdiyindən. Niyə də olmasın?! Ət, yağ yaxın durulası deyil, kolbasa, sosis od qiymətinə, çay, şirniyyat "ceyran beli"ndə, gilasa, əriyə yalnız baxmaq olur, kartof, soğan da öz əllərində, istəyəndə bahalaşdırır, istəyəndə ucuzlaşdırırlar. Banan nədir ki, onu da inhisara alıblar. İndi bu sayılmaz tropik meyvənin ən baha satıldığı yer Azərbaycandır. Nəyi deyəsən, hansını yazasan? Sənaye malları, yanacaq ucuzdurmu, xidmət, xüsusən də kommunal tarifləri əhalinin qazancına uyğundurmu? Bir də ki, bu qiymətlər bir-birinə bağlıdırlar axı... Əgər qənd-çay bahalaşırsa, yumurtanın da qiyməti qalxacaq. Çünki şəhərə yumurta satmağa gələn Gülsənəm qarı axşam kəndə dönəndə evinə qənd-çay almalıdır.

Bəla burasındadır ki, sözün həqiqi mənaslnda, dinamik xarakter almış bahalaşma həm yerli, həm də idxal məhsullarını əhatə edir, hər ikisi üzrə də əsassız, səbəbsiz, izahsız! Yerli istehsalçılara dövlətin etdiyi güzəştləri saymaqla qurtaran deyil. Vergilərdən azad edilməkdən tutmuş subsidiyalaracan olan həmin güzəştlərə dünyanın heç bir ölkəsində rast gəlmək mümkün deyil! O üzdən indi bizdə yerli kənd təsərrüfatı məhsullarının qiymətləri hamı - həm istehsalçı, həm də istehlakçı üçün sərfəli olmalı idi. İdxal məhsullarına gəldikdə, onların da bahalaşması üçün bu gün əsas yoxdur. Dünyada qiymətlərə ən çox təsir edən enerji daşıyıcıları birjalarındakı vəziyyətdir ki, orada da vəziyyət sabitdir. Neftin qiymətində kəskin bahalaşma, yaxud ucuzlaşma qeydə alınmır. Üstəlik, neçə vaxtdır manatımızın dəyəri dollara-avroya nisbətdə möhkəmdir, ölkədə iqtisadi artım müşahidə olunur, istehsal artır, qıtlıq yoxdur. Deməli, daxili bazarda həm idxal, həm də yerli məhsulların qiymətlərindəki manipulyasiya tam subyektiv səbəblərdən irəli gəlir!

Tək bu kifayətdir ki, əlaqədar qurumlar vaxt itirmədən ölkənin istehlak bazarında təsirli tədbirlər həyata keçirsinlər, artıq ilkin əlamətləri görünən süni qiymət artımının qarşısını alsınlar, özü də qətiyyətlə!

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# «Sətti» Xəzərin Azərbaycan sektorunda qazma əməliyyatları aparacaq

*Əvvəli 1-ci səh.*

Xatırladaq ki, bu ilin yanvar ayında SOCAR və "KazMunayGaz" şirkətləri arasında anlaşma memorandumu inzalanmışdı. Anlaşma memorandumu çərçivəsində atılacaq ilk konkret addım kimi "Sətti"nin Bakıya gətirilərək burada modernləşdirilməsi və daha sonra qurğu ilə Xəzər dənizinin Azərbaycan sektorunda qazma işlərinin aparılması nəzərdə tutulmuşdu. Cari ilin fevral ayında isə bu barədə memorandum imzalandı.

Budur, SOCAR-ın CDC şirkətinə etibarlı idarəetməyə verilmiş qurğu artıq Bakıdadır. Onun modernləşdirilməsi qazma qurğularının tikintisi və təkmilləşdirilməsi sahəsində böyük təcrübəyə malik CDC-nin müasir təchizat və logistika bazasında həyata keçiriləcək.



Modernləşdirmənin bu ilin sonunda yekunlaşması gözlənilir. Sonra qurğu ilə 6000 metrdən çox dərinliyə malik kəşfiyyat quyularının təhlükəsiz və səmərəli qazılması mümkün olacaq. "Sətti"nin eləcə də Xəzər dənizində qazma xidmətləri sahəsində rəqabət qabiliyyəti artacaq. Qurğunun ilk növbədə Abşeron yarımadasının dayazsulu hissəsində, "Ümid", "Babək" yataqlarında aparılan işlərə, eləcə də Xəzər dənizi akvatoriyasında digər əməliyyatlara cəlb edilməsi nəzərdə tutulur. Əməliyyat dövründə qurğu üzərində menecmenti CDC şirkəti həyata keçirəcək.

Xatırladaq ki, "KazMunayGaz" milli şirkəti Qazaxıstan dövlətinin neft və qaz sənayesində maraqlarını təmsil edən, karbohidrogenlərin kəşfiyyatı, hasilatı, emalı və nəqlini həyata keçirən operatordur. Şirkət 2002-ci ildə ölkə Prezidentinin qərarı ilə "Kazaxoyl" və "Neft və Qazın Nəqli" Qapalı Səhmdar cəmiyyətlərinin birləşdirilməsi nəticəsində yaradılıb. "KazMunayGaz"ın tərkibində 190-dan çox təşkilat birləşib. Onun səhmdarları "Samruk-Kazyna" Milli Sərvət Fondu (90 faiz) və Qazaxıstan Respublikasının Milli Bankıdır (10 faiz).

Şirkətin mənzil-qərargahı Nur-Sultan şəhərində yerləşir. Onun "Kaşaqan", "Tengiz" yataqlarında işləyən, dənizdə, həmçinin sahildə əməliyyatlar aparan, neftin və qazın nəqli, satışı ilə məşğul olan və digər bölmələri uğurla fəaliyyət göstərir.

"Sətti" qurğusunun idarəetməyə verildiyi CDC şirkəti isə 1996-cı ildə yaradılıb. SOCAR-ın CDC-dəki payı 92,44 faizdir. CDC şirkətinə məxsus "Dədə Qorqud", "İstiqlal" və Heydər Əliyev adına yarımdalma qazma qurğuları hazırda Xəzər dənizinin Azərbaycana aid hissəsində müxtəlif beynəlxalq miqyaslı layihələrdə fəaliyyət göstərir. Yaxın vaxtlarda "Sətti" qurğusu da Azərbaycanın karbohidrogen yataqlarında işə başlayacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ağstafa kümçüləri bu il 5,2 ton barama təhvil vermişlər

*Əvvəli 1-ci səh.*

Baramanın yemləndirilməsində və ona nəzarət edilməsində 7 nəfərdən ibarət ailə üzvlərimiz də yaxından iştirak edir".

Sadıxlı kəndinin sakini Ehtiram Əhmədov da təcrübəli kümçülərdəndir. Bu il 5 qutu ipəkqurdu götürərək 260 kiloqram barama təhvil verib. "Sağ olsun dövlət. Bizim üçün hər bir şərait yaradıb. Elə götürək baramaçılığı. İstehsal etdiyimiz hər kiloqram baramanı 4 manata satırıq. Bundan başqa, istehsal olunmuş bir kiloqram barama üçün dövlət 5 manat subsidiya ödəyir. Daha nə olmalıdır? Cəmi bir ay çəkdiyimiz əziyyətə görə pis qazanmırıq. Odur ki, hər il barama istehsalını artırmaq fikrindəyik. İndidən gələn il üçün barama saxlanacaq yeri müəyyənləşdiririk. Qərara almışıq ki, 2020-ci ildə 7 qutu ipəkqurdu götürüb 400 kiloqrama yaxın məhsul təhvil verək".

Rayonun Köçəsgər kənd sakini Qabil Əliyev də bu il barama istehsalında yüksək göstərici əldə edib. 6 qutu ipəkqurdundan 300 kiloqramdan çox barama götürüb.

İlk dəfə barama saxlayan Böyük Kəsik kəndinin sakini Rövşən Əhmədovla söhbət zamanı dedi ki, tanışlarının barama istehsalında əldə etdikləri qazanc onu da həvəsləndirib: "Eşitdim ki, rayonumuzda baramaçılar üçün bir aylıq təlim kursları təşkil edilib. Mən də həmin kursa yazıldım. Barama mövsümü başlayanda ipəkqurdu götürdüm. İlk günlər çox narahat idim. Çünki birdən-birə 4 qutu ipəkqurdu götürmüşdüm. Vaxt-vədə yetişdi və gördüm ki, narahatçılığım nahaq imiş. 200 kiloqramdan artıq barama təhvil verdim. İndi sevinirəm. Ona görə ki, cəmi bir ayda yaxşı qazanc əldə etmişəm. Odur ki, gələn il daha çox barama istehsal etməyi qərara almışam".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Qobustanda "Avropanı qayaüstü incəsənətlə gəzək" adlı sərgi açılıb

İyulun 5-də Qobustan Milli Tarix-Bədii Qoruğunda "Avropanı qayaüstü incəsənətlə gəzək" adlı sərgi açılıb.

AZƏRTAC xəbər verir ki, sərgi Portuqaliyanın UNESKO-nun Dünya Mədəni İrs Siyahısına daxil edilmiş qayaüstü incəsənət abidəsi Foz Koanın qayaüstü təsvirlərinə həsr olunub.

Tədbirin açılış mərasimində çıxış edən Qobustan Milli Tarix-Bədii qoruğunun direktoru Vüqar İsayev sərginin əhəmiyyətindən danışıb. Qeyd edib ki, Qobustan qoruğunun dünyada tanıdılması üçün müxtəlif layihələr icra olunur, əməkdaşlıq əlaqələri qurulur. Bu sərginin təşkil olunması da Qobustan Milli Tarix-Bədii Qoruğu ilə Foz Koa qoruğu arasında əməkdaşlığın başlanğıcı olacaq. Vurğulayıb ki, iki qoruq arasında əməkdaşlığın gücləndirilməsi məqsədilə bu ilin oktyabr ayında Qobustan qoruğunun Portuqaliyada sərgisi təşkil olunacaq.

Foz Koa qoruğunun direktoru Buruno Navarro bildirib ki, rəhbəri olduğu qoruqda olan qayaüstü rəsmlərin yaşı 20-30 min ili əhatə edir. Avropanın iki ən böyük açıq səma altında qayaüstü incəsənət abidəsi olan Qobustan və Foz Koanın arxeoloji kontekstə bənzər cəhətləri var. Bildirilib ki, tədqiqatçılar xüsusilə bu iki abidənin hazırda nəsli kəsilmiş ibtidai öküz təsvirlərinin stilistik və xronoloji bənzərliyini vurğulayırlar. Qeyd edilib ki, bu sərginin təşkil olunması Qobustan qoruğu ilə əlaqələrin inkişafı üçün əhəmiyyətli olacaq. Bundan sonra qarşılıqlı səfərlərin, sərgilərin təşkil olunması, təcrübə mübadiləsinin aparılması istiqamətində çalışacağıq.

Tədbir iştirakçıları daha sonra sərgi ilə tanış olublar.

Sərgidə Foz Koa dərəsində qayaüstü təsvirlərin aşkar olunması, onların qorunması uğrunda ictimaiyyətin mübarizəsi, bu qayaüstü incəsənətin UNESKO-nun Dünya Mədəni İrs Siyahısına daxil edilməsi, burada aparılan arxeoloji araşdırmalar haqqında məlumatlar və illüstrasiyalar öz əksini tapıb.

Sərgi iyulun 15-dək davam edəcək.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti özünüməşğulluq tədbirlərini həyata keçirmək məqsədilə əhalinin özünüməşğulluğunun təmin edilməsi üçün zəruri olan əmlakın (inventarların, maşın və avadanlıqların) satın alınması ilə əlaqədar

***açıq tenderə dəvət edir***

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (əlaqələndirici şəxs: Cavadov Mövlud, tel.: (012) 596-35-26) ünvanından ala bilərlər.

**İştirak haqqı: Hər LOT üzrə 2000,00 (iki min) manat**

**Satınalan təşkilat: Dövlət Məşğulluq Xidməti**

**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir Hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**

**Büdcə gəlirlərinin təsnifat kodu: 142340**
**Büdcə səviyyəsinin kodu: 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **08 avqust 2019-cu il saat 17:00-a,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **21 avqust 2019-cu il saat 17:00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **22 avqust 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən rəngli printerlər üçün katriclərin, ehtiyat hissələrinin alınması və katriclərin doldurulması üzrə iş və xidmətlərin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının qərarına əsasən "COPY PRINT" MMC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 17.05.2019-cu il tarixdə keçirilmiş "Valyuta mübadiləsi fəaliyyətinə "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada lisenziyaların verilməsi, valyuta mübadiləsi fəaliyyətinə verilmiş lisenziyaların reyestrinin və valyuta mübadilə əməliyyatları üzrə uçotun aparılması üçün proqram təminatının yaradılması məqsədilə mal və xidmətlərin" satın alınmasında açıq tender üsulu ilə satınalma müsabiqəsində "Ata-Texnologiya" MMC ƏDV daxil olmaqla 604.958,86 (altı yüz dörd min doqquz yüz əlli səkkiz manat 86 qəpik) manat məbləği ilə qalib elan olunmuş və qalib gəlmiş təşkilatla 03 iyul 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**Palata açıq tenderdə iştirak etmiş digər şirkətlərə təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.**

***Tender komissiyası***

# "Azercell"in təşəbbüsü ilə keçirilən tədbirdə iştirakçılar şirkətin fəaliyyəti ilə yaxından tanış oldular

Fəaliyyətinin yeni rəqəmsal dövrünə qədəm qoyan Azərbaycanın telekommunikasiya sahəsinin lideri "Azercell Telekom" MMC iyunun 28-də ilk dəfə olaraq "Azercell"də 1 gün" adlı tədbir təşkil etdi.



Bununla da "Azercell" tədbirə qatılan qonaqlara şirkətin iş mühiti ilə yaxından tanış olmaq və İT sahəsinin aparıcı ekspertləri ilə məlumat mübadiləsində iştirak etmək üçün əvəzolunmaz fürsət yaratdı. "Azercell"in İT və Big Data departamentlərinin mütəxəssisləri "Data Engineering and Machine Learning" kimi dövrün ən aktual mövzularına toxunaraq öncədən müraciət əsasında seçilən 40-dək qonaq ilə öz zəngin təcrübələrini bölüşdülər və telekom sahəsinin ən son trendləri haqqında geniş məlumat təqdim etdilər. Tədbirdə iştirak edən müxtəlif şirkət əməkdaşları və ali təhsil müəssisələrinin tələbələri rəqəmsal dünyanın yenilikləri ilə tanış olmaq imkanından da yararlandılar.

"Azercell Telekom" bundan sonra da müasir gənclərin öz potensial imkanlarını reallaşdırması və peşəkar maraqlarının üzə çıxarılması məqsədilə müxtəlif təşəbbüs və layihələri həyata keçirməyə davam edəcək.

***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Mərkəzi Bankı

## istismarda olan informasiya sistemlərinin proqram platformalarının dəstəklənməsi və modernizasiya xidmətlərinin satın alınması üzrə

## *tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı LOT-lar üzrə açıq tender üsulu ilə elektron satınalma keçirir

**1-ci LOT:** Elektron sənəd dövriyyəsi sisteminin proqram platformasının 1(bir) il müddətində on-site tipli dəstəklənməsi xidmətinin satın alınması;

**2-ci LOT:** Elektron imza üzrə sertifikatlaşma sisteminin proqram platformasının 1 (bir) il müddətində on-site tipli dəstəklənməsi xidmətinin satın alınması;

**3-cü LOT:** Elektron statistik məlumat bazası və analitik hesabatlıq sisteminin proqram platformasının 1 (bir) il müddətində on-site tipli dəstəklənməsi xidmətinin satın alınması;

**4-cü LOT:** Maliyyə savadlığı portalının proqram platformasının 1 (bir) il müddətində on-site tipli dəstəklənməsi xidmətinin satın alınması;

**5-ci LOT:** Mərkəzi Bankda istismarda olan Elektron imza üzrə sertifikatlaşma sisteminin modernizasiyası.

Tender proseduru 19 avqust 2019-cu il tarixdə saat 12:00-da Dövlət satınalmalarının vahid internet portalında (https://etender.gov.az/) keçiriləcəkdir.

Maraqlanan şəxslər müvafiq LOT üzrə tenderdə iştirak etmək üçün portal vasitəsilə elektron elanla tanış ola və iştirak etmək arzusunda olanlar hər bir LOT üzrə 100 (bir yüz) manat məbləğində iştirak haqqı ödəməklə iddiaçı qismində qeydiyyatdan keçərək tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Hərbçilər və müxalifət Sudanda müvəqqəti hökumət yaradacaq



Sudanın keçid hərbi şurası və "Azadlıq və dəyişikliklər uğrunda qüvvələr" müxalifətçi birliyi ikigünlük danışıqlar zamanı müvəqqəti vətəndaş hökumətinin yaradılması barədə razılıq əldə etmişlər. Birgə hakim struktur Suveren şura adlandırılmışdır. Bu barədə "Sky News Arabia" telekanalı xəbər verir.

Məlumata görə, yeni hakimiyyət 3 il 3 ay fəaliyyət göstərəcək. Bu müddətdə zorakılıq hallarının şəffaf təhqiqatının keçirilməsi və müstəqil hökumətin formalaşdırılması nəzərdə tutulur.

Danışıqlarda iştirak etmiş müxalifət nümayəndəsi İbrahim Amin demişdir ki, şuraya 5 mülki şəxs və 5 hərbi qulluqçu daxil olacaq. Şuranın 11-ci üzvü isə hərbi keçmişli mülki şəxs olmalıdır.

Xatırladaq ki, cari ilin aprel ayında hərbçilər Sudanda dövlət çevrilişi edərək Prezident Ömər Bəşiri devirmiş və ona qarşı cinayət işi açılmışdır. Çevrilişdən sonra ölkədə mülki hakimiyyət orqanları yaradılması tələbi ilə kütləvi etirazlar başlamışdır.

## ABŞ-da dövlət bayrağını yandıran üç nəfər tutuldu



ABŞ-da müstəqillik günü bayram edilərkən Ağ evin qarşısında üç nəfər Amerika bayrağını yandırmışdır. Polis onları saxlamışdır. Bu barədə "Washington Examiner" qəzeti xəbər verir.

Asayişi pozanlar İnqilabi Kommunist Partiyasının üzvləridir. Onlara başçılıq etmiş şəxsin adı açıqlanmışdır. Tutulanlar Qreqori Conson və onun iki silahdaşıdır. Qeyd olunur ki, Conson bundan əvvəl də ölkənin bayrağını yandırmış, lakin Klivlenddə keçirilmiş məhkəmə işini udmuşdur. Bayraq yandırılan zaman kommunistlər antihökumət şüarları səsləndirmişlər.

## Türkiyə İsveçrəyə və BMT-yə etiraz notaları göndərdi



Türkiyə İsveçrə hökumətinə və BMT-nin Cenevrədəki ofisinə rəsmi etiraz notaları göndərmişdir. Ankaranın narazılığına PKK-nın bir qrup terrorçusunun İsveçrəyə getməsinə icazə verilməsi və BMT nümayəndələrinin bu terrorçu təşkilatın Suriyadakı qanadının təmsilçiləri ilə imzaladığı "Hərəkətlər planı" səbəb olmuşdur. Bu barədə "Anadolu" agentliyi xəbər verir. Məlumata görə, sənədi imzalamaq üçün Cenevrəyə bir qrup terrorçu, o cümlədən PKK-nın "Fərhat Abdi Şahin" ləqəbli xüsusilə təhlükəli üzvü getmişdir.

Rəsmi etiraz notalarına "Fərhad Abdi Şahin" ləqəbli terrorçunun İnterpolun "qırmızı sirkulyarı" ilə axtarışda olması barədə bildiriş də əlavə edilmişdir.

## Əfqanıstanda bazarda partlayış törədildi



Əfqanıstanda bazar ərazisində mərmi partlaması nəticəsində azı 4 yerli sakin həlak olmuş, 36 nəfər yaralanmışdır. Bu barədə polisə istinadən "TOLOnews" telekanalı xəbər verir.

Məlumata görə, yaralılar arasında uşaqlar var. Xəsarət alanlar yerli xəstəxanalara çatdırılmışdır. Hadisə ölkənin şimal-qərbində yerləşən Fəryab əyalətində baş vermişdir.



## Suriyaya neft daşıyan tanker saxlanıldı

İranın Məqsədəuyğunluq şurasının (ali lider yanında məşvərətçi orqan) sədri Möhsün Rezai bildirmişdir ki, Böyük Britaniya Cəbəl-Tariqdə saxlanmış tankeri buraxmasa, Tehran buna cavab olaraq Britaniyanın bir gəmisini saxlamalıdır. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Məlum olduğu kimi, srağagün Suriyaya xam neft daşıyan supertanker saxlanmışdır. Cəbəl-Tariqin Baş Naziri Fabian Pikardonun dediyinə görə, "Grace 1" gəmisinin Avropa İttifaqının Suriyaya qarşı sanksiyaları pozması barədə məlumat daxil olduğundan hökumət bu cür tədbir həyata keçirmişdir. Tanker ABŞ-ın xahişi ilə saxlanmışdır.

Bununla əlaqədar İranın Xarici İşlər Nazirliyi Böyük Britaniyanın Tehrandakı səfirinə etirazını bildirmiş və tankerin buraxılmasını tələb etmişdir. XİN-in rəsmi nümayəndəsi Abbas Musavi bundan əvvəl demişdir ki, Tehran Avropa İttifaqının sanksiyaları üzündən Cəbəl-Tariqdə tankerin saxlanmasını qəbulolunmaz hesab edir. Çünki həmin sanksiyalar BMT-nin qərarlarına əsaslanmır.

"Mehr" agentliyinin xəbərinə görə, "Grace 1" tankeri Rusiyanın "Rusian Titan Shipping Line" şirkətinə məxsusdur. Məlumata görə, gəmi Suriyaya İran nefti daşıyırmış. Tankerin məxsus olduğu şirkət isə Birləşmiş Ərəb Əmirliklərində qeydiyyatdadır.

# Temperatur enəcək, bəzi bölgələrdə yağış yağacaq

Ölkə ərazisində bugünə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq, yağmursuz keçəcək. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 19-23°, gündüz 27-31° isti, Bakıda gecə 21-23°, gündüz 28-30° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 754 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 30-35 faiz təşkil edəcək.

Abşeronun şimal və cənub çimərliklərində arabir güclənən şimal-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturunun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 23-24°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 24-25° isti olacağı gözlənilir.

Azərbaycanın əksər rayonlarında hava əsasən yağmursuz keçəcək, lakin axşama doğru bəzi şimal və qərb rayonlarında yağış yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 32-37° isti, dağlarda gecə 9-14°, gündüz 17-22° isti olacağı ehtimal edilir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin axşam saatlarında bəzi yerlərdə yağış yağacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 16-21°, gündüz 30-35° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam saatlarında bəzi yerlərdə yağış yağacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 19-24° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək.

Havanın temperaturunun gecə 20-25°, gündüz 30-35° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında arabir yağış yağacağı, bəzi yerlərdə leysan xarakterli intensiv olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 28-33° isti, dağlarda gecə 10-15°, gündüz 20-25° isti olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 32-37° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Şimal-şərq əsəcək, küləyi arabir güclənəcək. Havanın temperaturunun gecə 18-21°, gündüz 30-35° isti, dağlarda gecə 17-20°, gündüz 25-29° isti olacağı ehtimalı var.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aparat rəhbəri Hidayət Abdullayevə atası

**KAVİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin İqtisadi qanunvericilik şöbəsinin müdir müavini Vilayət Əlizadəyə əzizi

**ELXAN MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə əzizi

**ŞÜKUFƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova qayınatası

**KAMİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyevə anası

**ZİNYƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərbaycan" nəşriyyatının kollektivi Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova qayınatası

**KAMİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə əzizi

**ŞÜKUFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sabirabad Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Heydər Yaqubov və idarənin kollektivi Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyevə anası

**ZİNYƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Tariyel Atamalıyev Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyevə anası

**ZİNYƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az



Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8518
Sifariş 2163
Qiyməti 40 qəpik